## Xankəndidə külli miqdarda narkotik və silah-sursat tapılıb



**Xankəndidə narkotik vasitə və silah-sursat aşkar edilib. Bu barədə DİN-in mətbuat xidmətindən bildirilib.**

Qeyd edilib ki, polis əməkdaşlarının keçirdikləri tədbirlərlə Xankəndi şəhəri ərazisində yerləşən qarajların birindən 3,8 kiloqram çəkidə marixuana, həmçinin şəhər ərazisindən 13 ədəd müxtəlif markalı avtomat silahı, 1 ədəd pulemyot, 11 tüfəng, 7 ədəd qumbara, 3 alışdırıcı, 25 patron darağı, 1718 ədəd müxtəlif çaplı patron və digər sursatlar aşkar olunaraq götürülüb.



## Makron geri çəkildi

Fransa yaxın vaxtlarda Ukraynaya hərbi personal göndərməyi düşünmür

**Fransa yaxın vaxtlarda Ukraynaya hərbi personal göndərməyi düşünmür.**

APA xəbər verir ki, bunu Çexiyanın ”Pravo” qəzetinə müsahibəsində Fransa prezidenti Emmanuel Makron deyib. ”Bu o demək deyil ki, biz Fransa qoşunlarını yaxın vaxtlarda Ukraynaya göndərməyi düşünürük, ancaq müzakirə açırıq və Ukraynaya, xüsusən də Ukrayna ərazisinə dəstək olmaq üçün edilə biləcək hər şeyi düşünürük”, - Makron bildirib.

№ 42 (6043) 2024-cü il

Qiymıəti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 5 mart 2024-cü il (çərşənbə axşamı)



## Heç bir bölgəmizdə güclü zəlzələ gözlənilmir

Qurban Yetirmişli türk ölkələrində baş verən zəlzələnin Azərbaycan üçün qorxusu olmadığını deyib

**Türk ölkələrində güclü zəlzələ olub. Qırğızıstanın şimalında, Qazaxıstanla sərhəddə 5.4 bal gücündə zəlzələ baş verib.**

Seysmologiya İnstitutundan verilən məlumata görə, zəlzələnin episentri Qazaxıstanın Almatı şəhərindən 37 kilometr məsafədə yerləşib. Yeraltı təkanların 15-30 saniyə davam etdiyi bildirilir. Ölən və xəsarət alanlar barədə məlumat yoxdur. Hazırda şəhərdə həyəcan siqnalı işə düşüb. Ocağı 10 kilometr dərinlikdə yerləşən zəlzələ Qırğızıstan və Çində də hiss edilib.

(səh.4)



## Böyük hərəkata start verilir

TÜRKPA-ya üzv dövlətlərdə yaşamaq üçün icazə asanlaşdırılacaq

**Türkdilli Ölkələrin Parlament Assambleyasına (TÜRKPA) üzv dövlətlərdə yaşamaq üçün icazə asanlaşdırılacaq. Bu məsələ TÜRKPA-nın Hüquq məsələləri və Beynəlxalq əlaqələr komissiyasının Bakıda keçirilən 11-ci iclasında gündəmə gətirilib. Həmçinin TÜRKPA komissiyalarının sayının artırılması təklif olunub.**

TÜRKPA-nın Hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyasının sədri, Türkiyə Böyük Millət Məclisinin deputatı Osman Mesten Özbəkistan və Türkmənistanın təşkilatda müşahidəçi qismində iştirak etdiklərini deyib və bildirib ki, onların da bizim təşkilata üzv olması vacibdir: ”Türk dövlətləri arasındakı əlaqələrin güclənməsi dostlarda güvən yaradacaq, düşmənin canına qorxu salacaqdır.

(səh.4)

## Yekun protokol imzalanıb

Azərbaycanla Pakistan arasında hərbi əməkdaşlığın vəziyyəti müzakirə edilib



**Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Pakistan İslam Respublikası Birləşmiş Qərargahı arasında ”10-cu Azərbaycan-Pakistan İşçi Qrupu Səviyyəli Görüşü” keçirilib.**

Müdafiə Nazirliyindən “Şərq”ə verilən xəbərə görə, görüşdə iki ölkə arasında hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, hərbi təhsil və elm, əməliyyat planlaşdırılması, birgə təlimlərin keçirilməsi və maraq doğuran digər mövzulara dair ətraflı fikir mübadiləsi aparılıb.

Görüşün yekun protokolu imzalandıqdan sonra qarşılıqlı hədiyyələr təqdim edilib, xatirə fotosu çəkdirilib.

# Berlindəki görüşdə razılaşmalar olub

Bu, yaxşı xəbər olsa da, çox ehtiyatlı davranmaq lazımdır



“Paşinyan hökuməti həqiqətən sülh istəyirsə, daxili-xarici bütün qüvvələrin səsini kəsməlidir”

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Berlində keçirilən görüş haqda məlumat verərkən bildirib ki, tərəflər Almaniyada konkret maddələr üzrə müzakirələr aparmayıblar.**

Nazirin sözlərinə görə, Bakının təklifi və qarşı tərəfin də qəbul etdiyi yanaşma ondan ibarət idi ki, bundan öncəki müzakirələrdən fərqli olaraq, mətn, konkret maddələr üzrə müzakirələr aparılmasın: ”Ancaq bir neçə açıq və tərəflərin razılaşmadığı yanaşmalar var.

(səh.3)

# Nuru Paşa Bakıda anıldı

Tədbirdə TÜRKPA-nın Baş katibi, Türkiyənin Azərbaycandakı səfiri, millət vəkilləri, tarixçi-alimlər iştirak ediblər




**Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) Katibliyi Qafqaz İslam Ordusunun komandanı, ”Bakının xilaskarı” Nuru Paşanın əbədiyyətə qovuşmasının 75-ci ildönümünə həsr edilmiş anım tədbiri keçirib.**

Tədbirdə TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Er, Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı, Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının üzvü Həsən Həsənov, millət vəkilləri, tarixçi-alimlər və media nümayəndələri iştirak ediblər.

(səh.3)



## ABŞ-nin gizli "Türkiyə xəritəsi"

Yunanıstanda az qala zəlzələ effekti yaradıb

**ABŞ Konqresindən sızan gizli hesabat həm Ege, həm də Aralıq dənizində Türkiyəni narahat edən xəritəni ortaya çıxarıb. Sözügedən xəritə Yunanıstanda az qala zəlzələ effekti yaradıb.**

“Şərq” türk mediasına istinadən xəbər verir ki, ABŞ hökuməti cümə günü, yanvarın 27-də Türkiyəyə F-16 təyyarələrinin satışını təsdiqləyib. 23 milyard dollarlıq razılaşmanı göstərən bu qərar Türkiyənin İsveçin NATO üzvlüyünü təsdiqləməsindən sonra verilib.

(səh.2)

## Azərbaycanda iki tələbə vəfat edib



**Bakı Dövlət Universitetinin (BDU) SABAH qruplarının Hüquqşünaslıq ixtisası üzrə II kurs tələbəsi Elçin Əliyev vəfat edib.**

Bu barədə universitet məlumat yayıb.

Qeyd edilib ki, Elçin Əliyev BDU-ya 600-dən yuxarı balla qəbul olunub, Universitetin təhsil göstəricilərinə görə fərqlənən tələbələrindən olub. ”Tələbəmizin vaxtsız vəfatından dərindən kədərləndiyimizi bildirir, ailəsinə dərin hüznlə başsağlığı veririk”, - deyə əlavə edilib. Odlar Yurdu Universitetinin Maliyyə ixtisasının 1-ci kurs tələbəsi Canbaxışlı Süraye də vəfat edib. Bununla bağlı Universitetin rəsmi səhifəsi paylaşım edib.

*Qeyd edək ki, C.Süraye daha öncə Odlar Yurdu Kollecinin məzunu olub.*

## Qobuda itlərin parçaladığı uşağın durumu ağırdır

Azyaşlıda çoxsaylı, müxtəlif ölçülü dişlənmiş, cırılmış, əzilmiş və soyulmuş yaralar müşahidə edilib



**Ötən gün “Qobu Park-3” yaşayış kompleksinin yaxınlığında sahibsiz itlər 9 yaşlı oğlan uşağına hücum edərək ona ağır xəsarətlər yetiriblər.**

Təcili tibbi yardım göstərildikdən sonra azyaşlı Kliniki Tibbi Mərkəzə yerləşdirilib. TƏBİB Qobuda itlərin hücumuna məruz qalan həmin uşaqla bağlı açıqlama yayıb.

(səh.3)



## Bütün bəlaların səbəbkarı Rusiyadır

Azər Həsrət: “Paşinyanın Rusiyanı Ermənistandan birdəfəlik çıxarma cəhdlərini alqışlayıram”

(səh.4)



## Qaz probleminin kökü idarəetmədədir

Sahə üzrə məsul şəxslər qohumbazlıq amili ilə deyil, peşəkarlıq və idarəetmə qabiliyyətinə görə təyin edilməlidir

(səh.5)

# Prezident Bolqarıstan Xalq Məclisinin sədrini qəbul edib

## İlham Əliyev: “AŞPA-da Azərbaycana qarşı qərəzli və çirkin kampaniya nümayəndə heyətimiz üçün dözülməz olub”



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 4-də Bolqarıstan Respublikası Xalq Məclisinin sədri Rosen Dimitrov Jelyazkovu qəbul edib.**

**Rosen Dimitrov Jelyazkov Bolqarıstan Prezidentinin salamlarını və prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini dövlət başçısına çatdırıb.**

Qonaq öz adından da Prezident İlham Əliyevi prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik edərək vurğulayıb ki, bu, Azərbaycan xalqının dövlət başçısının siyasətinə mütləq dəstəyinin ifadəsidir.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirib, onun da salamlarını Prezident Rumen Radevə çatdırmağı xahiş edib.

Rosen Dimitrov Jelyazkov Azərbaycan ilə Bolqarıstan arasında münasibətlərin strateji tərəfdaşlıq zəminində inkişaf etdiyini vurğuladı, iki ölkənin parlament nümayəndə heyətlərinin beynəlxalq təsisatlarda əməkdaşlığını qeyd etdi. O, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa-quruculuq işlərinə toxundu. Qonaq ölkəmizin COP29-a ev sahibliyi etməsi münasibətilə təbriklərini çatdırdı və zəngin qazıntı yanacaq resurslarına sahib olmasına baxmayaraq, Azərbaycan tərəfindən yaşıl və bərpaolunan enerji sahəsində həyata keçirilən layihələrin önəmini vurğuladı. O, Qara dənizin dibi ilə çəkiləcək elektrik kabeli layihəsinə Bolqarıstanın da qoşulmaq niyyətini ifadə edərək, bütövlükdə ölkələrimiz arasında enerji sahəsində uğurlu əməkdaşlığın həyata keçirildiyini dedi.

Prezident İlham Əliyev Azərbaycanın beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdiyini bildirdi. Bundan sonra bir sıra Avropa təsisatları tərəfindən Azərbaycana qarşı genişmiqyaslı kampaniyanın başlandığını və bunun qərəzli xarakter daşıdığını qeyd etdi. Avropa Şurası Parlament Assambleyasında Azərbaycana qarşı qərəzli və çirkin kampaniyanın aparıldığını deyən dövlətimizin başçısı bu cür yanaşmanın nümayəndə heyətimiz üçün dözülməz olduğunu vurğuladı. Bu ədalətsizliyə qarşı bir sıra ölkələrin parlamentləri tərəfindən mövqenin ifadə olunduğunu qeyd etdi.

Azərbaycan Prezidenti hətta 2020-ci ildə 44 günlük Vətən müharibəsi başa çatdıqdan sonra Azərbaycanın sülhün irəli aparılması üçün təşəbbüslərinə Ermənistanın müsbət münasibət bildirmədiyini, əksinə Qarabağda silahlandırma və militarizasiya siyasəti apardığını, həmin ərazilərə böyük həcmdə minaların və silah-sursatın göndərilməsini davam etdirdiyini xatırladı.

Azərbaycan ilə Bolqarıstan arasında strateji tərəfdaşlıq əlaqələrinə toxunan Prezident İlham Əliyev yüksək səviyyəli qarşılıqlı səfərlərin və görüşlərin önəmini qeyd edərək, ötən ilin dekabrında Serbiyada Rumen Radevlə keçirdiyi görüşü məmnunluqla xatırladı.

Dövlət başçısı yaşıl enerji layihəsi çərçivəsində Qara dənizin dibi ilə çəkiləcək elektrik kabeli layihəsinə Bolqarıstanın da qoşulmaq niyyətini müsbət addım kimi dəyərləndirdi və bunun layihədə iştirak edən bütün dövlətlər tərəfindən dəstəkləndiyini vurğuladı.

Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin iclasının uğurla keçirildiyini deyən Prezident İlham Əliyev bu tədbirdə Azərbaycanın panavropa enerji təchizatçısı olmasının vurğulandığını bildirdi və Avropanın səkkiz ölkəsinin Azərbaycan qazı ilə təchiz olunduğunu qeyd etdi.

Söhbət zamanı ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıq kontekstində SOCAR-ın Bolqarıstanda ofisinin fəaliyyət göstərməsi məmnunluqla vurğulandı.

# Bakıda TÜRKPA-nın iclası keçirilib

## Osman Mesten AŞPA-nın Azərbaycana qarşı təzyiqlərini pisləyib



## “Özbəkistan və Türkmənistanı da TÜRKPA üzv dövlətləri sırasında görmək istəyirik”

**Martın 4-də Milli Məclisin inzibati binasında Türk Dövlətləri Parlament Assambleyasının Hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyasının ”TÜRKPA üzv dövlətlərində elmi və texnoloji inkişafda parlamentlərin rolu və qanunvericilik dəstəyi” mövzusuna həsr edilmiş 11-ci iclası keçirilib.**

İclası Milli Məclisin komitə sədri, TÜRKPA-nın Ətraf mühit, təbii ehtiyatlar və sağlamlığın qorunması komissiyasının sədri Əhliman Əmiraslanov açaraq tədbir iştirakçılarını Milli Məclisin sədri Sahibə Qafarovanın adından salamlayıb və onlara uğurlar arzulayıb. TÜRKPA-nın yarandığı gündən türkdilli dövlətlər arasında əlaqələrin və əməkdaşlığın möhkəmləndirilməsi, qanunvericiliklərin uyğunlaşdırılması ilə bağlı mühüm işlər gördüyünü deyən Əhliman Əmiraslanov bu baxımdan bugünkü iclasın mövzusunun aktuallığını və gündəlikdəki məsələlərin əhəmiyyətini vurğulayıb: ”TÜRKPA yarandığı gündən türkdilli ölkələr arasında əlaqələrin möhkəmləndirilməsi, genişləndirilməsi istiqamətində mühüm addımlar atıb. Biz parlamentarilər olaraq üzv dövlətlərdə qanunvericiliyin, qanunların bir-birinə yaxınlaşdırılması, uyğunlaşdırılması istiqamətində işləyirik. TÜRKPA öz fəaliyyət arealları daxilində vacib qanunvericilik aktlarının üzv dövlətlər arasında inteqrasiyasında böyük rol oynayıb. Bizim bugünkü iclasımız elm və texnologiyaların inkişafına həsr edilib. Üzv dövlətlər arasında elm və texnologiya sahəsində əlaqələr mövcuddur. Bu əlaqələrin daha geniş miqyasda, həmçinin səmərəli olması üçün qanunvericilik aktlarının bir-birinə inteqrasiyası çox vacibdir”. Sonra TÜRKPA-nın Hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyasının sədri Osman Mesten (Türkiyə), komissiyanın sədr müavini Abzal Kuspan (Qazaxıstan), komissiyanın üzvləri Cavanşir Feyziyev və Məlahət İbrahimqızı (Azərbaycan), Bibigül Jeksenbay (Qazaxıstan), Nurjigit Kadırbekov (Qırğızıstan), Filiz Kılıç (Türkiyə) və TÜRKPA-nın baş katibi Mehmet Süreyya Er salamlama nitqləri ilə çıxış ediblər. Çıxışçılar TÜRKPA-ya üzv dövlətlər arasında müxtəlif istiqamətlərdə əlaqələrin inkişaf etdirilməsi, rəqəmsal texnologiyalar və informasiya təhlükəsizliyi, süni intellektin tətbiqi kimi sahələrdə əməkdaşlığın gücləndirilməsi, elmi və texnoloji inkişafda parlamentlərin rolu ilə bağlı fikirlərini bölüşüblər. Sonra iclasın mövzusuna dair hesabat məruzəsinin layihəsi dinlənilib. Məruzəni komissiyanın sədr müavini Abzal Kuspan təqdim edib. Komissiyanın tövsiyə qərarı layihəsini komissiyanın sədri Osman Mesten diqqətə çatdırıb. Komissiya üzvləri hesabat məruzəsini və tövsiyə qərarını TÜRKPA-nın növbəti plenar iclasında baxılmaq üçün təsdiq ediblər. Sonra ”Fərdi məlumatların mühafizəsi haqqında” model qanun layihəsinə və digər məsələlərə baxılıb, müvafiq qərarlar qəbul edilib.

TÜRKPA-nın Hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyasının sədri, Türkiyə Böyük Millət Məclisinin deputatı Osman Mesten AŞPA-nın Azərbaycana qarşı təzyiqlərini pisləyib. Deyib ki, Avropa Şurası Parlament Assambleyasının (AŞPA) bütün təzyiqlərinə baxmayaraq, Türkiyə hər zaman qardaş Azərbaycanın yanında olacaq. O hesab edir ki, türk dövlətləri arasındakı əlaqələrin güclənməsi dostlarda güvən yaradacaq, düşmənin canına qorxu salacaq: ”Türk Dövlətləri Təşkilatları başda olmaqla bir çox beynəlxalq təşkilatlarla əlaqələri daha da inkişaf etdirməliyik. Həmçinin qardaş Özbəkistan və Türkmənistanı da TÜRKPA üzv dövlətləri sırasında görmək istəyirik”. Mesten Azərbaycan-Ermənistan münasibətlərindən danışarkən qeyd edib ki, iki ölkə tarixləri boyunca sülhə ilk dəfədir ki, bu qədər yaxındır.

Müzakirələr zamanı Milli Məclisin deputatları Məlahət İbrahimqızı və Cavanşir Feyziyev çıxış edərək gündəlikdəki məsələlər barədə qeydlərini, təkliflərini səsləndiriblər, komissiyanın gələcək fəaliyyəti ilə bağlı fikirlərini bildiriblər.

Tədbirdə Hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyasının növbəti iclasının yeri, tarixi və mövzusuda müəyyən edilib. Komissiyanın ”TÜRKPA üzv dövlətlərində Ombudsman təsisatları” mövzusuna həsr edilən növbəti iclasının gələn il Qazaxıstanda keçirilməsi qərara alınıb.

**İsmayıl**

# İlham Əliyev Şahbaz Şərifi təbrik ünvanlayıb

## Prezident Pakistan Baş nazirini Azərbaycana səfərə dəvət edib



**Prezident İlham Əliyev Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifə təbrik məktubu ünvanlayıb.**

Təbrikdə deyilir:

”Hörmətli cənab Baş nazir,

Pakistan İslam Respublikasının Baş naziri vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Qardaş ölkə və etibarlı tərəfdaşımız olan Pakistanla münasibətlərimizin yüksələn xətlə inkişaf etməsi məmnunluq doğurur. Dini və mədəni köklərlə bir-birinə bağlı olan ölkələrimiz həm ikitərəfli əsasda, həm də çoxtərəfli qaydada qarşılıqlı maraq doğuran sahələrdə səmərəli əməkdaşlıq edirlər. Pakistanın ölkəmizin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hər zaman verdiyi dəstəyinə və ədalətli mövqeyinə görə minnətdarıq.

Biz bundan sonra da Azərbaycan ilə Pakistan arasında qardaşlığa, dostluğa, qarşılıqlı etimad və dəstəyə əsaslanan əlaqələri və strateji tərəfdaşlığı genişləndirmək əzmindəyik. Siyasi dialoqumuzu davam etdirmək, ikitərəfli əməkdaşlığımızın gələcək inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparmaq məqsədilə Sizi Azərbaycana səfərə dəvət edirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Pakistanın və xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar arzulayıram”.

# AFFA-nın yeni prezidenti Elmar Məmmədyarov olacaq?

## Təxminən10 gün sonra bütün namizədlərin adı ictimaiyyətə açıqlanacaq



**Rövnəq Abdullayev AFFA-nın prezidenti postuna namizədliyini irəli sürməyəcək.**

**Bu barədə o, Gəncə Futbol Akademiyasının açılış mərasimində deyib.**

Məsələyə münasibət bildirən AFFA İcraiyyə Komitəsinin üzvü, sabiq xarici işlər naziri Elmar Məmmədyarov ”Şərq”ə söyləyib ki, bu Rövnəq Abdullayevin şəxsi fikridir: ”Rövnəq bəy bildirdi ki, AFFA-nın 16 ildir prezidentliyini edir. Bundan sonra vəzifəni yeni şəxsin icra etməsini istəyirəm. Rövnəq Abdullayevin yerinə namizəd olacaq bəzi şəxslərin adları ağlımda var. Amma mənim bunu açıq şəkildə deməyim doğru olmaz. Çünki dəyişiklik təkcə Elmar Məmmədyarovun fikirləri əsasında baş vermir. Təxminən 10 gün sonra bütün namizədlərin adı ictimaiyyətə bəlli olacaq. Namizəd olmaqla bağlı isə fikrim yoxdur”.

**Şahanə Ziyad**

# ABŞ-nin gizli "Türkiyə xəritəsi"

## Yunanıstanda az qala zəlzələ effekti yaradıb






**ABŞ Konqresindən sızan gizli hesabat həm Ege, həm də Aralıq dənizində Türkiyəni narahat edən xəritəni ortaya çıxarıb. Sözügedən xəritə Yunanıstanda az qala zəlzələ effekti yaradıb.**

“Şərq” türk mediasına istinadən xəbər verir ki, ABŞ hökuməti cümə günü, yanvarın 27-də Türkiyəyə F-16 təyyarələrinin satışını təsdiqləyib. 23 milyard dollarlıq razılaşmanı göstərən bu qərar Türkiyənin İsveçin NATO üzvlüyünü təsdiqləməsindən sonra verilib. Aylarla davam edən danışıqlardan sonra qanuna uyğun olaraq ABŞ Dövlət Departamenti Konqresə razılaşma barədə məlumat verib. ABŞ Dövlət Departamentinin açıqlamasında Türkiyənin 40 yeni F-16 alacağı, hazırda əlində olan 79 ədədi isə yeniləndəcəyi bildirilib.

AFP-yə danışan ABŞ rəsmisi bildirib ki, İsveçin NATO üzvlüyünə Türkiyənin rəsmi təsdiqi ilə bağlı sertifikat sənədləri Vaşinqtona çatana qədər təyyarələrin satışı təsdiqlənməyib. Həmin gün ABŞ Yunanıstana 8,6 milyard dollar dəyərində F-35 döyüş təyyarələri satıb. Həm ABŞ senatorları, həm də xüsusilə erməni və yunan lobbiləri Türkiyənin F-16 almasına mane olmaq üçün Vaşinqtonda intensiv işləyirdilər.

Yunanıstan mətbuatında dərc olunan xəbərlərdə ABŞ dövlət katibi Antoni Blinkenin Konqresə təqdim etdiyi gizli məktub müzakirə edilib. Bu kontekstdə ”Eretikos” internet saytı ABŞ-də yerləşən Konqres araşdırmalarına əsaslanan xəbərlərində bu gizli məktubdakı təfərrüatları müzakirə edib. Yunan mediası məsələ ilə bağlı ”ABŞ-nin Türkiyənin lehinə bomba” ifadəsini işlədib.

Konqresə təqdim edilən məktubun təkcə Yunanıstanın Egeydəki suverenliyinə deyil, həm də Yunanıstanın materikinə təhlükə yaratdığını bildirən ”Eretikos”, başda Yunanıstanın Baş naziri Mitsotakis olmaqla hökuməti tənqid atəşinə tutub. Yunan qanadının bu məktuba reaksiya vermədiyini bildirən internet saytı, ”Türklər nə istəsələr, edir, biz ölkə olaraq itiririk”, - deyib.

Konqres hesabatındakı ifadələri ”qalmaqallı” hesab edən Yunan qanadı, hesabata görə, Türkiyənin həm Egey, həm də Şərqi Aralıq dənizinin rəsmi sahibi olduğunu yazıb. Egeydəki adaları ”Yunan adaları” olaraq xarakterizə etməyən ABŞ, Yunan təyyarələrinin zaman-zaman Türkiyə Hərbi Hava Qüvvələrini təciz etdiyini və bu vəziyyətin Egeydəki sülhü pozduğunu bildirib.

Sözügedən hesabatın 37 və 38-ci səhifələrində həm Ege, həm də Aralıq dənizində türk varlığına aid xəritələr var. Birinci xəritədə yaşıl rəngdə olan adaların silahsız olduğu bildirilir və Yunanıstan və Türkiyə arasında mübahisəli adalar çəhrayı rəngdə göstərilir. Hesabatın vurğulamaq istədiyi odur ki, Yunanıstanın düz yanında yerləşən adalar Afinaya aid deyil. Ona görə də Türkiyə bu adalar üzərində uçuşlar təşkil edə və ya təlimlər keçirə bilər.

İkinci xəritə Yunan qanadı üçün daha da pisdir. ”Eretikos” internet saytı, bütün Şərqi Aralıq dənizinin xəritədə Türkiyəyə buraxıldığı bildirilir: ”Bu, acınacaqlı bir vəziyyətdir. Üstəlik, ABŞ xəritəsində Rodos, Karpatos, Kasos və Kritin müəyyən bölgələri Türkiyəyə qalıb”.

Yunan mətbuatı F-16-ların satışı ilə bağlı xəbərin dərc edildiyini, lakin bu başlığın ABŞ Konqresini çaşdırdığını və Ankaranın ”Mavi Vətən”i beynəlxalq aləmdə qəbul etdirdiyini göstərdiyini bildirir.

**Turan**




# Nuru Paşa Bakıda anıldı

## Tədbirdə TÜRKPA-nın Baş katibi, Türkiyənin Azərbaycandakı səfiri, millət vəkilləri, tarixçi-alimlər iştirak ediblər





**Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) Katibliyi Qafqaz İslam Ordusunun komandanı, ”Bakının xilaskarı” Nuru Paşanın əbədiyyətə qovuşmasının 75-ci ildönümünə həsr edilmiş anım tədbiri keçirib.**

Tədbirdə TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Er, Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı, Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının üzvü Həsən Həsənov, millət vəkilləri, tarixçi-alimlər və media nümayəndələri iştirak ediblər. Tədbirin moderatoru ”Şərq” qəzetinin baş redaktoru, Əməkdar jurnalist Akif Aşırlı olub.

TÜRKPA-nın baş katibi Mehmet Sürreya Er Nuru Paşanın döyüş yolundan, göstərdiyi qəhrəmanlıqlardan söz açıb. O bildirib ki, Bakının azad edilməsi mürəkkəb tarixi-siyasi dövrə təsadüf edib: ”Nuru Paşa və Qafqaz İslam Ordusu Azərbaycan dövlətçilik tarixində çox mühüm rol oynayıb. Qafqaz İslam Ordusu 15 sentyabr 1918-ci il tarixində Bakını bolşevik və erməni çətələrindən təmizləyərək qəhrəmanlıq dastanı yazdı. Nuru Paşa və Qafqaz İslam Ordusu Azərbaycan xalqının qəlbində əbədiyyən yer edib. Onların qəhrəmanlığı Azərbaycan-Türkiyə qardaşlığının bir parlaq nümunəsini kimi tariximizə qızıl hərflərlə həkk olunub. Nuru Paşanın qəhrəmanlıqları iki millətin ortaq tarixində şərəfli qardaşlıq səhifəsinə çevrilib. Onun qurduğu silah fabrikləri Türkiyə Cümhuriyyətində müdafiə sənayesinin əsasını təşkil edib. O baxımdan belə şəxslərin fəaliyyətinin gələcək nəsillərə çatdırılması çox önəmlidir. Nuru Paşa Türkiyə və Azərbaycan üçün bu gün də böyük igidlik nümunəsi, əsl qəhrəmanlıq mücəssəməsi hesab edilir. Nuru Paşa kimi sərkərdələrin adının yaşadılması, Vətən uğrunda verilmiş qurbanların, göstərilmiş qəhrəmanlıqların daim xatırlanması Türk dünyasının gələcəyi baxımından mühüm rol oynayır”. Baş katib Türkiyə-Azərbaycan münasibətlərinin möhkəm bağlara sahib olmasını vurğulayıb: ”Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə qardaşlığının yeni mərhələsinin əsasını qoyub. Bu gün inanırıq ki, Nuru Paşanın, Qafqaz İslam Ordusu şəhidlərinin, Vətən müharibəsi şəhidlərinin ruhu şaddır. Xalqımız onları unutmayacaq, əbədiyyən xatırlayacaq”.

Tədbirin moderatoru Akif Aşırlı vurğulayıb ki, Nuru Paşa tarixə adını Birinci Dünya müharibəsindən sonra həm qalib zabit, həm də xalqımızın qəlbini fəth edən sərkərdə kimi yazdırıb. A.Aşırlının sözlərinə görə, Bakının azad edilməsi istiqlalın elan olunmasından sonra Azərbaycanın taleyində ikinci böyük tarixi hadisə idi. Onun sözlərinə görə, Nuru Paşanın rəhbərliyi ilə Bakının işğaldan azad edilməsindən sonra hökumət Gəncədən Bakıya köçdü və Bakı Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı kimi fəaliyyət göstərdi: ”Nuru Paşa Məhəmməd Əmin Rəsulzadənin dediyi kimi sanki ”göydən yerə enmiş bir mələk kimi gəldi”. Nuru Paşa Azərbaycana Mosul, Təbriz və Zəngəzur üzərindən gəlir, son dayanacağı Yevlax olur. O, azərbaycanlılar qarşısında çıxış edir və söyləyir ki, ”əziz qardaşlarım, daha sizə silah lazım olmayacaq. Artıq sizin əmniyətiniz, təhlükəsizliyiniz əmin əllərdədir. Onu biz qoruyacağıq”.

Sonra Türkiyə Cümhuriyyəti Prezidentinin baş müşaviri Yalçın Topçunun Nuru Paşanın əbədiyyətə qovuşmasının 75-ci ildönümü ilə bağlı mesajı oxunub: ”Nuru Paşa Ənvər Paşanın qardaşı, Halil Qut Paşanın qardaşı oğludur. O, Vətən və millət mücadiləsi ilə tariximizə adını qızıl hərflərlə yazdırıb. Həmçinin Türkiyə müdafiə sənayesinin də qurucusudur. Can Azərbaycanın istiqlalı üçün Türkiyə hər zaman qardaşlarının əlindən tutub. Bu gün də qardaşlıq və münasibətlər istənilən sahədə davam etdirilir. Dünya var olduqca əlaqələrimiz var olacaq”.

TÜRKPA-nın Hüquq Məsələləri və Beynəlxalq Əlaqələr Komissiyasının sədri, Türkiyə Böyük Millət Məclisinin üzvü Osman Mesten Qafqaz İslam Ordusunun 1918-ci ildə Azərbaycana gəlməsini və qardaşlarına kömək etməsini iki ölkə arasındakı qardaşlığın ən böyük əlamətlərindən biri olduğunu izah edib. Onun sözlərinə görə, Osmanlı Birinci Dünya müharibəsində bütün cəbhələrdə məğlubiyyətlərlə üzləşsə də, öz əsgərlərini Azərbaycana göndərib: ”Bu ordunun sayəsində Azərbaycan tam müstəqilliyini əldə edib. 1918-ci il sentyabrın 15-də Bakı işğaldan və zülmdən azad oldu. Bizim borcumuz bir əsr əvvəl əcdadlarımızın qoyub getdiyi mirası qorumaqdır”.

Nuru Paşanın müdafiə sənayesindəki fəaliyyətindən bəhs edən Mesten Nuru Paşanın Cümhuriyyət tarixində ilk silah istehsalçılarından olduğunu deyib. İkinci Qarabağ müharibəsi zamanı Türkiyə xalqının və Prezident Rəcəb Tayyib Ərdoğanın Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstəyi xatırladan Mesten Azərbaycan və Türkiyə qardaşlığının çox möhkəm olduğunu bildirib: ”Qarşıda hələ çox uzun yol var. Bizi daha böyük vəzifələr gözləyir. Əlaqələrimizi daha da gücləndirməklə gələcək nəsillərə güclü miras qoymaq və hər sahədə dərinləşdirmək borcumuzdur”.

Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı diqqətə çatdırıb ki, Nuru Paşanın qəlbi Türk dünyası ilə döyünüb, o, Türk dünyasının böyük təəssübkeşi olub. Bu gün Nuru Paşanın və canlarını Vətən uğrunda fəda etmiş bütün şəhidlərin ruhu şaddır: ”Qafqaz İslam Ordusunun Bakıdakı qələbəsi İstanbulu və Bakını nəzarətdə saxlamaq istəyən qüvvələri məyus etdi”. Azərbaycanın bir çox bölgəsində türk şəhid məzarlıqlarının olduğunu bildirən Bağçı ”Osmanlı əsgərləri körfəzdə yatan əmanətimiz və mirasımızdır” deyib: ”Bu irsi və etibarı, birliyimizi qoruyub saxlamaq bizim qardaşlıq borcumuzdur”.

TÜRKPA Hüquq Məsələləri və Beynəlxalq Əlaqələr Komissiyasının üzvü, MHP sədrinin müavini, millət vəkili Filiz Kılıç çıxışında Nuru paşanın ölümündən 75 il keçməsinə baxmayaraq, Azərbaycan türkləri tərəfindən hörmət və minnətlə anılmasından məmnun olduqlarını bildirib: ”Biz boş yerə ”bir millət iki dövlətik” demirik”. Killigil soyadını alan Nuru Paşa Qazi Mustafa Kamal Atatürk və silahdaşlarının qurduğu Türkiyə Cümhuriyyətində ölkəsi və Türk dünyası üçün yorulmadan çalışmağa davam etdi. O, daim Türk dünyasının birliyindən, birlik olaraq çox daha güclü olacağından, bir gün bu arzunun mütləq reallaşacağından danışırdı”.

Tədbirdə TÜRKPA-nın Təhsil, mədəniyyət, sosial və humanitar məsələlər komissiyasının üzvü Hikmət Babaoğlu, millət vəkili Məlahət İbrahımqızı, TDT-nin AŞ üzvü Həsən Həsənov, dr. Nejdet Karaköse, Milli Müdafiə Universitetinin professoru Mehman Süleymanov, professor Nəsiman Yaqublu, tarixçi-alim Firdovsiyyə Əhmədova, AMEA-nın şöbə müdiri Kamran İsmayılov, İstanbul Ticarət Universitetinin rektoru Abdulhamit Avşar, professor Minaxanım Əsədova, tarixçi Telman Nüsrətoğlu, türkoloq Faiq Ələkbərli, AMEA-nın şöbə müdiri Mübariz Göyüşlü çıxış ediblər. Çıxış edənlər Nuru Paşanın Azərbaycanın müstəqil bir dövlət kimi mövcudluğuna hər vasitə ilə çalışdığını və bunun üçün onun həm siyasi-diplomatik, həm də silahlı mübarizə yoluna əl atdığını bildiriblər. 44 günlük Vətən müharibəsinin iki ölkənin möhkəm qardaşlıq bağlarını bütün dünyaya bir daha nümayiş etdirdiyini məmnunluqla vurğulayıblar. Tədbirdə Nuru Paşa haqqında sənədli film də nümayiş etdirilib.

**İsmayıl**

# Berlindəki görüşdə razılaşmalar olub

## Bu, yaxşı xəbər olsa da, çox ehtiyatlı davranmaq lazımdır

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Berlində keçirilən görüş haqda məlumat verərkən bildirib ki, tərəflər Almaniyada konkret maddələr üzrə müzakirələr aparmayıblar.**



“Paşinyan hökuməti həqiqətən sülh istəyirsə, daxili-xarici bütün qüvvələrin səsini kəsməlidir”

Nazirin sözlərinə görə, Bakının təklifi və qarşı tərəfin də qəbul etdiyi yanaşma ondan ibarət idi ki, bundan öncəki müzakirələrdən fərqli olaraq, mətn, konkret maddələr üzrə müzakirələr aparılmasın: ”Ancaq bir neçə açıq və tərəflərin razılaşmadığı yanaşmalar var. Biz əsasən həmin məqamların müzakirəsinə iki gün həsr etdik”. C.Bayramov vurğulayıb ki, rəsmi Bakının Ermənistandan gözləntiləri məsələnin tam hüquqa əsasən həlli, yalnız sözdə deyil, real olaraq, sənəd və qanunlara istinadən, qarşılıqlı ərazi bütövlüklərinin tanınması şərti ilə sülh müqaviləsinin razılaşdırılması və qəbul edilməsidir: ”Sülh müqaviləsi davamlı olmalıdır ki, gələcəkdə hansısa açıq suallar yaratmasın. 2021-ci ilin yanvar ayından Azərbaycan Ermənistanla münasibətlərin normallaşması istiqamətində addımlar atmağa başladı. 2022-ci ildə Azərbaycan vacib əhəmiyyətə malik 5 baza prinsipini elan etdi. Həmin 5 baza prinsipi Ermənistan tərəfindən qəbul edilib. Eyni zamanda beynəlxalq ictimaiyyət tərəfindən müsbət dəyərləndirilib. Azərbaycan tərəfindən hazırlanan və qarşı tərəfə təqdim olunan sənəd layihəsi də həmin o prinsiplər üzərində qurulub, beynəlxalq hüququn normalarına uyğun şəkildə formalaşır”.

**XİN başçısının açıqlamalarını dəyərləndirən siyasi şərhçi Zeynal Əmrəliyev ”Şərq”ə deyib ki, görüşün formatından, həm də sonrakı bəyanatlardan hiss olunur ki, Almaniyanın xarici işlər naziri tərəflərə müdaxilə etməyib. Analitik vurğulayıb ki, Azərbaycan XİN rəhbərinin də dediklərindən belə anlaşılır ki, razılaşdırılmamış məsələlər elə də çox deyil:** ”Konkret bir neçə maddə var ki, onların üstündə razılığa gəlmək lazımdır. Ötən gün Ermənistan xarici işlər naziri Arorat Mirzoyan da sülhlə bağlı müsbət mesajlar verdi. Görünür, Berlindəki görüş yüksək atmosferdə keçib. Bu, yaxşı xəbər olsa da, çox ehtiyatlı davranmaq lazımdır. Paşinyan hökuməti həqiqətən sülh istəyirsə, daxili-xarici bütün qüvvələrin səsini kəsməlidir. Paşinyan hökuməti erməni kilsəsi, diaspor, rusmeyilli müxalifət, qerbmeyilli klan, ordu içindəki revanşist qüvvələr, Fransa, İran, Hindistan və s. ölkələrdəki qüvvələrin təzyiqlərinə məruz qalmaqdadır. Baş nazir onlara rəğmən, yekun və həlledici qərar verməlidir. Hazırda top Paşinyandadır və o, dilemma qarşısındadır. Ya ”Qarabağ klanı” sayılan Koçaryan-Sarkisyan kimi başqa dövlətlərin maşası olmağı üstün tutacaq, ya da erməniləri düşünüb Bakının tələblərini qəbul edəcək və sülh müqaviləsinə imza atacaq. Bu, Ermənistanın düşdüyü çətin vəziyyətdən xilas olması deməkdir. Azərbaycan-Ermənistan arasında sülhün əldə olunması ”Qafqaz evi” lahiyəsinin reallaşmasında mühüm addım olacaq. Yəni Azərbaycan dövlət başçısı İlham Əliyev bir çoxlarının ürəyində qalmış arzuları reallaşdırır. Prezidentin siyasəti sadəcə Azərbaycan torpaqlarını düşməndən azad etməklə, suverenliyimizi bərpa etməklə qalmır, eyni zamanda Qafqazı birləşdirir və bölgədə illərdir oynanan çirkli oyunları darmadağın edir”.

**İsmayıl Qocayev**

# Qobuda itlərin parçaladığı uşağın durumu ağırdır

## Azyaşlıda çoxsaylı, müxtəlif ölçülü dişlənmiş, cırılmış, əzilmiş və soyulmuş yaralar müşahidə edilib

**Ötən gün ”Qobu Park-3” yaşayış kompleksinin yaxınlığında sahibsiz itlər 9 yaşlı oğlan uşağına hücum edərək ona ağır xəsarətlər yetiriblər. Təcili tibbi yardım göstərildikdən sonra azyaşlı Kliniki Tibbi Mərkəzə yerləşdirilib.**



TƏBİB Qobuda itlərin hücumuna məruz qalan həmin uşaqla bağlı açıqlama yayıb. Məlumatda bildirilir ki, 03.03.2024-cü il tarixində saat 17:37 radələrində ”Qobu Park-3” yaşayış kompleksinin yaxınlığında it dişləməsi səbəbilə Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinə çağırış daxil olub. Dərhal hadisə yerinə təcili tibbi yardım briqadası göndərilib.

Zərərçəkən 9 yaşlı (kişi cinsli) azyaşlı Kliniki Tibbi Mərkəzə hospitalizasiya olunub.

Azyaşlıda çoxsaylı, müxtəlif ölçülü dişlənmiş, cırılmış, əzilmiş və soyulmuş yaralar müşahidə edilib.

Təcili olaraq əməliyyata götürülən azyaşlıya tibbi yardım göstərilib və Reanimasiya şöbəsinə yerləşdirilib. Hazırda vəziyyəti ağır qiymətləndirilir.

# Paşinyan daha birbaşa müharibə ritorikası ilə danışmağa başlayıb

## “31 erməni kəndi” iddiasından da göründüyü kimi, baş nazir faktları təhrif etməyə, reallıqları danmağa çalışır

**Ermənistanın baş nazirinin ofisi ”Azərbaycanın nəzarətində olan 31 erməni kəndi” iddiası ilə bağlı məlumat yayıb. ”Erməni ərazisi” olduğu iddia edilən kəndlərin adları qeyd olunub. Erməni Baş nazir Nikol Paşinyan daha öncə iddia edib ki, ”31 erməni kəndi”nin əhəmiyyətli əraziləri bu və ya digər şəkildə Azərbaycanın nəzarətindədir. Bu kəndlərin ümumi ərazisinin 170 kvadratkilometr olduğu bildirilir.**

Həmin kəndlərin Zəngəzur, Qazax və Göyçə istiqamətində yerləşdiyi deyilir. Bu ərazilərin ”erməni kəndi” olması iddiası Ermənistanın növbəti yalanıdır. Söhbət 44 günlük müharibədən sonra Azərbaycanın dövlət sərhədini bərpa etməsi nəticəsində ordumuzun nəzarətinə keçən ərazilərdən gedir. Bu ərazilər işğal dövründə Ermənistanın dövlət sərhədini qanunsuz olaraq irəli çəkməsi nəticəsində ”erməni ərazisinə” çevrilmişdi. Rəsmi İrəvan istəyir ki, sərhəddə ”güzgü prinsipi” tətbiq edilsin, qoşunlar geri çəkilsin. Buna görə də ”31 erməni kəndinin” Azərbaycanın nəzarətində olduğunu iddia edərək, qoşunların geri çəkilməsinə nail olmaq istəyirlər.

**Politoloq Qabil Hüseynli ”Şərq”ə açıqlamasında deyib ki, Ermənistan 90-cı illərdə Şərqi Zəngəzurda işğal etdiyi və Azərbaycanın geri qaytardığı əraziləri nəzərdə tutur:** ”Söhbət də dağlıq ərazilərdən və yüksəkliklərdən gedir. Ermənistan Azərbaycan torpaqlarını işğal edəndən sonra sərhəd boyu əraziləri Azərbaycanın içərilərinə doğru 10-15 kilometr çəkmişdi. 44 günlük Vətən müharibəsi zamanı isə Azərbaycan işğal altında olan rayonlarını azad etdikdə həmin torpaqlarını da geri qaytardı və 30 il əvvəlki haqsızlıq və ədalətsizliyə cavab verdi. Ermənilər isə hər şeyə ”öz nöqteyi-nəzərləri” ilə baxırlar. Azərbaycanın öz legitim və tanınmış sərhədlərinə qayıtmasını ”işğal faktı” kimi qələmə verməyə çalışırlar. Paşinyan da bu sərsəm iddia əsasında ”31 kəndin qaytarılması”ndan danışır. Bu, tamamilə cəfəngiyyat və uydurmadır. Ona qalsa, Ermənistanın Azərbaycana qaytarmalı olduğu ərazilərin coğrafiyası daha genişdir. Naxçıvana qədər bütün torpaqlar qədim Azərbaycan əraziləridir”.



**Q.Hüseynlinin sözlərinə görə, Praqa görüşü zamanı Ermənistan və Azərbaycan BMT Nizamnaməsinə və 1991-ci il Almatı bəyannaməsinə sadiqlik nümayiş etdirərək bir-birinin ərazi bütövlüyü və suverenliyini tanıyıblar:** ”Yəni Ermənistan tərəfi Azərbaycanın 86,6 min kv.km və Ermənistanın 29,8 min kv.km-lik ərazi bütövlüyünə sadiqliyini təsdiqləyiblər. Bu o deməkdir ki, Paşinyan hakimiyyəti Azərbaycanın ən azı 86.6 min kvadratkilometr ərazisini tanımaqla Qarabağın Azərbaycan ərazisi olduğunu rəsmən və açıq şəkildə qəbul edib. Tərəflər arasında Sülh müqaviləsi bağlandıqdan sonra isə Ermənistan-Azərbaycan sərhədində dövlətlərarası sərhədin delimitasiyası və demarkasiyası da mövcud xəritələr əsasında aparılacaq. Əslində, Azərbaycan Sovet imperiyası tərəfindən işğal ediləndə ərazilərimiz 114 min kvadrat kilometr idi. Ruslar Zəngəzur, Göyçə mahalı və Dərələyəzi əlimizdən alıb ermənilərə verdilər”.

Son vaxtlar Nikol Paşinyanın fəallaşdığını vurğulayan politoloq deyib ki, Ermənistan yenidən qeyri-konstruktiv mövqe nümayiş etdirməyə başlayıb: ”Paşinyan daha əvvəlki ritorika ilə danışmır, birbaşa müharibə ritorikası ilə danışmağa başlayıb. ”31 erməni kəndi” iddiasından da göründüyü kimi, erməni baş nazir indi də ortada olan faktları təhrif etməyə, reallıqları danmağa, özündən uydurmalar danışmağa başlayıb. Görünür, danışıqlar prosesini manipulyasiya edən Paşinyanın bu cür danışmasının da arxasında qərbin Ermənistanı silahlandırması dayanır. Lakin Ermənistan tərəfi anlamalıdır ki, bölgədə sülh və sabitliyin təminatının yolu əsassız iddialardan yox, ərazi bütövlüyünün və suverenliyin təsdiq olunması və hörmət edilməsi əsasında qonşu ölkələrlə münasibətlərin qurulmasından və sülhün bərqərar olunması üçün Azərbaycanla birbaşa konstruktiv danışıqlardan keçir”.

**Şəymən Bayramova**



# Böyük hərəkata start verilir

## TÜRKPA-ya üzv dövlətlərdə yaşamaq üçün icazə asanlaşdırılacaq

**Türkdilli Ölkələrin Parlament Assambleyasına (TÜRKPA) üzv dövlətlərdə yaşamaq üçün icazə asanlaşdırılacaq. Bu məsələ TÜRKPA-nın Hüquq məsələləri və Beynəlxalq əlaqələr komissiyasının Bakıda keçirilən 11-ci iclasında gündəmə gətirilib. Həmçinin TÜRKPA komissiyalarının sayının artırılması təklif olunub.**

TÜRKPA-nın Hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyasının sədri, Türkiyə Böyük Millət Məclisinin deputatı Osman Mesten Özbəkistan və Türkmənistanın təşkilatda müşahidəçi qismində iştirak etdiklərini deyib və bildirib ki, onların da bizim təşkilata üzv olması vacibdir: ”Türk dövlətləri arasındakı əlaqələrin güclənməsi dostlarda güvən yaradacaq, düşmənin canına qorxu salacaqdır. Türk Dövlətləri Təşkilatları başda olmaqla bir çox beynəlxalq təşkilatlarla əlaqələri daha da inkişaf etdirməliyik. Həmçinin qardaş Özbəkistan və Türkmənistanı da TÜRKPA üzv dövlətləri sırasında görmək istəyirik”.

**AMEA-nın əməkdaşı, türkoloq-alim Faiq Ələkbərli ”Şərq”ə bildirib ki, Türk Dövlətləri Təşkilatının çərçivəsində bütün təşkilatların fəallaşması, o cümlədən Türk Parlament Assambleyasının da aktiv sferaya keçməsi təqdirəlayiq haldır. Alimin sözlərinə görə, TÜRKPA-ya üzv olan ölkələr arasındakı münasibətlərin daha da yaxınlaşdırılması və gediş-gəlişlərinin asanlaşdırılması mütləqdir, vacibdir:** ”Türk dövlətləri arasındakı münasibətlərin - iqtisadi, siyasi, hərbi, mədəni və digər sahələrdə inkişaf etməsini istəyiriksə, şübhəsiz, türk ölkələrinin vətəndaşları rahat gediş-gəliş imkanı əldə etməlidir. Bu istiqamətdə heç bir problem olmamalıdır. Özbəkistan və Türkmənistanın da rəsmi şəkildə TÜRKPA-ya üzv olması təqdirəlayiq olardı. Çünki müşahidəçi statusunda qalmaq türk dövlətləri ilə qismən məsafə saxlanmasına gətirib çıxara bilər. Ümumən, son günlər türk respublikaları arasında əlaqələrin inkişafı üçün ciddi addımlar atılıb. Lakin davamı da gəlməlidir. Ortaq türk ordusunun yaradılması mütləqdir, çünki indiki dövrün şərtləri artıq ortaq türk ordusunun, Turan ordusunun qurulmasını diktə edir. Yaxın dönəmlərdə yeni müharibə ocaqlarının yaranması, hətta regional müharibələrin genişlənməsi istisna olunmur. Belə şəraitdə türk dövlətləri öz ordusunu gecikmədən formalaşdırmalıdır”.

> “Son günlər türk respublikaları arasında əlaqələrin inkişafı üçün ciddi addımlar atılır”

*F.Ələkbərlinin sözlərinə görə, əsas məsələlərdən biri də ortaq türk əlifbasının tətbiq olunması istiqamətində müəyyən addımlar atılır, amma bu işlər genişləndirilməlidir:* ”Bütün türk dövlətlərinin orta məktəblərində ortaq əlifbanın öyrədilməsi vacibdir”.

**İsmayıl Qocayev**

# Heç bir bölgəmizdə güclü zəlzələ gözlənilmir

## Qurban Yetirmişli türk ölkələrində baş verən zəlzələnin Azərbaycan üçün qorxusu olmadığını deyib

**Türk ölkələrində güclü zəlzələ olub. Qırğızıstanın şimalında, Qazaxıstanla sərhəddə 5.4 bal gücündə zəlzələ baş verib.**




Seysmologiya İnstitutundan verilən məlumata görə, zəlzələnin episentri Qazaxıstanın Almatı şəhərindən 37 kilometr məsafədə yerləşib. Yeraltı təkanların 15-30 saniyə davam etdiyi bildirilir. Ölən və xəsarət alanlar barədə məlumat yoxdur. Hazırda şəhərdə həyəcan siqnalı işə düşüb. Ocağı 10 kilometr dərinlikdə yerləşən zəlzələ Qırğızıstan və Çində də hiss edilib.

Qırğızıstanda isə yeraltı təkanların episentri Çolpon-Ata şəhərindən 35 kilometr şimalda və Bişkekdən 190 kilometr aralıda İssık-Kul bölgəsində olub. Zəlzələnin episentrinə ən yaxın yaşayış məntəqələrində zəlzələnin intensivliyi Qazaxıstanın Almatı şəhərində 4,5 bal, Çolpon-Atada 4 bal, Bişkek və Karakolda hər birində 3,5 bal olub.

Qeyd edək ki, dünən Türkiyədə də zəlzələ qeydə alınıb. Kahramanmaraşda 4,4 bal gücündə zəlzələ baş verib. Türkiyə Respublikası Fövqəladə Halların İdarə olunması Agentliyinin (AFAD) məlumatına görə, Kandilli Rəsədxanası zəlzələnin maqnitudasının 4,7 olduğunu açıqlayıb.

**Mövzu ilə bağlı ”Şərq”ə açıqlama verən geologiya-mineralogiya elmləri doktoru, Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli deyib ki, Yer sakit durmur:** ”Zəlzələlər piltələrin Yerdaxili tektonik hərəkətləri nəticəsində baş verdiyinə görə dünyanın müxtəlif seysmogen zonalarında baş verir. Yəni seysmoaktiv bölgələrdə bu cür zəlzələlərin olması təbii hadisədir. Bəzən zəlzələ ocaqları Yerin dərin qatlarında yerləşdiyi və təkanların gücü zəif olduğuna görə həmin təkanlar Yer səthinə gəlib çatmır. Dünyanın bütün seysmik zonalarında yerdaxili proseslər gedir. Əksəriyyəti seysmik stansiyalar vasitəsilə qeydə alınır, bəzi hallarda isə müxtəlif bal gücündə hiss edilir”.

İnsanların narahatlığına gəldikdə isə seysmoloq türk ölkələrində baş verən zəlzələnin Azərbaycan üçün heç bir qorxusu olmadığını deyib: ”Qırğızıstanda, Qazaxıstanda, Çində, hətta qardaş Türkiyədə belə qeydə alınan zəlzələlərin bizim zonaya heç bir təsiri ola bilməz.

Azərbaycanda seysmik vəziyyət fon səviyyəsindədir. Səhv etmirəmsə, 11 xırda təkan olub. Bu təkanlar isə ancaq cihazlar tərəfindən qeydə alınır. Hiss olunan zəlzələlər də qaçılmazdır. Lakin respublikanın heç bir bölgəsində dəhşətli zəlzələ gözlənilmir. Sadəcə, xırda təkanlarla enerji boşalmaları gedir, bir yandan da ayrı-ayrı blokların hərəkəti nəticəsində belə xırda təkanların qeydə alınması ilə litosfer ”nəfəs alır”.

**Şəymən**



### Əsgərimizin hansı şəraitdə, harada saxlandığı məlum deyil

Ombudsman Ermənistan ombudsmanına müraciət etməli və izahat tələb etməlidir

**Azərbaycan Ordusunun əsgəri Ruslan Eldəniz oğlu Pənahovun hazırda hansı şəraitdə, harada saxlandığı məlum deyil.**

Verilən məlumata görə, R.Pənahov Laçın rayonu ərazisindəki xidməti mövqelər arasında hərəkət edərkən əlverişsiz hava şəraitində istiqaməti itirərək azıb. Hərbçimiz Ermənistan tərəfindən saxlanılıb və onun barəsində müxtəlif maddələrlə uydurma cinayət işi açılıb. ”Şərq” xəbər verir ki, Ruslan Pənahovun atası Eldəniz Pənahov Bizim.Media-ya açıqlamasında məsələ ilə bağlı dövlət qurumlarının mütəmadi iş apardıqlarını bildirib: ”Hazırda Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasındayam. Bir azdan Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan nümayəndəliyinə gedəcəyəm. Övladımın nə vaxt qaytarılacağı ilə bağlı məlumat deyilmir. Bu, dövlətin bildiyi məsələdir. Ancaq bizimlə daim əlaqə saxlayırlar və müvafiq qurumlarımızın hər biri çalışır. Beynəlxalq Qızıl Xaç Komitəsi övladımla onlayn görüş təşkil edəcəklərini deyiblər. Vaxt bildirilməyib”.

**Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsinin rəhbəri Səadət Bənənyarlı ”Şərq”ə açıqlamasında qeyd etdi ki, Azərbaycan dövlət orqanları R.Pənahovun azad edilməsi istiqamətində çalışır. Lakin:**

- Hesab edirəm ki, əsgərimizin valideynləri Beynəlxalq Qırmızı Xaç Komitəsinin Bakıdakı ofisi ilə mütəmadi əlaqə saxlamalıdırlar. Valideynlərə tövsiyə edirəm ki, BQXK-yə müraciət etsinlər, hətta tələb etsinlər ki, övladları barədə onlara dəqiq, ətraflı məlumat verilsin. Buna onların haqqı var. BQXK-nin Bakı nümayəndəliyi Ermənistandakı nümayəndəliklə əlaqəli işləyir. Onlar əsgərin harada olması, saxlanma şəraiti, ona işgəncə verilib-verilmədiyini dəqiqləşdirib ailəyə xəbər verməlidir. Dövlət orqanları üzərinə düşəni edir. Lakin valideynlər də BQXK-dən tələb etməlidir.

*S.Bənənyarlı bildirdi ki, Azərbaycan ombudsmanı da Ermənistan ombudsmanına müraciət etməli və izahat tələb etməlidir.*

**Məlahət**

# Müharibə riski artır

## Yunanıstan da Ermənistanla hərbi əməkdaşlığı genişləndirir





> *“Rəsmi Tbilisi İrəvana silah daşınmasında “nəfəslik rolu”nu üzərinə götürüb-götürməyəcəyi həlledici amil olacaq”*

**Ermənistan Fransa və Hindistandan sonra Yunanıstanla da hərbi sahədə əməkdaşlığı genişləndirmək qərarına gəlib. İrəvanda səfərdə olan Yunanıstanın müdafiə naziri Nikos Dendiasın erməni həmkarı Suren Papikyanla görüşündə Afinada əldə olunmuş razılaşmalar çərçivəsində görülən işlər müzakirə olunub və bir sıra yeni əməkdaşlıq istiqamətləri müəyyən edilib.**

Dendias Ermənistan, Yunanıstan, Fransa və Hindistan arasında dördtərəfli əməkdaşlığın mümkünlüyündən də danışıb. Nazir qeyd edib ki, Ermənistan, Yunanıstan və Kipr arasında uğurlu üçtərəfli hərbi əməkdaşlıq yaradılıb: ”Ermənistan və Yunanıstanın çox nüfuzlu ortaq dostları ilə - Fransa və Hindistanla üçtərəfli və ya dördtərəfli əməkdaşlıqlar ola bilər”. Görüş zamanı tərəflər həmçinin regional təhlükəsizlik məsələləri ilə bağlı da fikir mübadiləsi aparıb. Qeyd edək ki, Ermənistan və Yunanıstan hökumətləri arasında Hərbi-Texniki Əməkdaşlığa dair Saziş ratifikasiya edildikdən sonra hərbi-texniki əməkdaşlığa yeni təkan verilməsi barədə razılıq əldə olunub.

**Siyasi şərhçi Asif Nərimanlı ”Şərq”ə deyib ki, Fransa müdafiə naziri Sebastyan Lekornudan sonra Yunanıstanın müdafiə naziri Nikos Dendias da İrəvana gəlib və bu səfərlər erməni baş nazirin hər iki ölkəyə gedişindən sonra baş verib. Analitikin fikrincə, Ermənistan silahlanlanmanı şaxələndirir:** ”Yunanıstan Ermənistanın silahlandırılmasında iki rola malikdir. Birincisi, ötən il hərbi-texniki əməkdaşlıq sazişi imzalayan Afina və İrəvan arasında birgə silah istehsalı həyata keçirilir. Yunanıstan həm də arsenalında olan Qərb silahlarının Ermənistana ötürülməsi işini həyata keçirir. Məsələn, ötən il Fransa-Almaniya istehsalı olan ”Milan” tank əleyhinə raketlərin bu ölkə tərəfindən ermənilərə verildiyi haqda məlumatlar var idi. İkincisi, Yunanıstan Fransanın Ermənistana silah daşınmasında əsas marşrutlardan biri rolunu oynaya bilər. Parisin İrəvanı silahlandırmasında ən unikal marşrut Qara dəniz yoludur. İstisna deyil ki, Paşinyanın Fransadan sonra Yunanıstana səfərinin gündəliyindəki əsas məsələlərdən biri də bu olub. Lakin silah marşrutunun tamamlanması və Ermənistana çıxışın əldə edilməsi üçün Gürcüstanın da razılaşması vacibdir. Rəsmi İrəvan bu istiqamətdə işləyir, Lekornunun İrəvana gəlişindən bir gün sonra Paşinyanın Gürcüstanın yeni Baş naziri İrakli Kobaxidzeyə zəngi də bunu deməyə əsas verir”.

**Ekspert hadisələrin xronologiyasına diqqət yönəldib:** ”Paşinyan 21 fevralda Parisə səfər etdi, 22 fevralda Lekornu İrəvana gəldi. Bir gün sonra erməni baş nazir gürcü həmkarı ilə telefon müzakirəsi apardı. 27 fevralda Nikol Afinaya uçdu və 28 fevralda Ermənistanın Gürcüstandakı səfiri bu ölkənin müdafiə naziri İrakli Çikovani ilə görüşdü. Bu trafik Ermənistanın silahlanmasında Paris-Afina-Tbilisi-İrəvan marşrutunun prioritet yola çevriləcəyini deməyə əsas verir. Aydındır ki, daşınacaq silahlar ”Bastion” kimi təhlükə yaratmaq riski aşağı olan yox, daha ağır və təhlükəli texnika olacaq. Rəsmi Tbilisinin Bakı və Ankara ilə münasibətlər fonunda İrəvana silah daşınmasında ”nəfəslik rolu”nu üzərinə götürüb-götürməyəcəyi, yaxud bunu nə qədər edəcəyi Ermənistanın silahlanmasında həlledici amil olacaq. Bakı ”Bastion”ların daşınmasında sərgilədiyi loyal mövqeyi ağır hərbi texnikaların daşınmasında göstərməyə bilər”.

**İsmayıl Qocayev**

**Avropanın Rusiyanı Ermənistandan sıxışdırıb çıxarmaq cəhdləri hər gün daha da sürətlənir, çünki Nikol Paşinyan və komandası bu layihədə fəal iştirak edir. Avropalılarla hər rəsmi görüşdən sonra onun ritorikası daha dağıdıcı və təhlükəli olur. Bu, təbii ki, Ermənistan üçün nəticəsiz qalmayacaq.**



# Bütün bəlaların səbəbkarı Rusiyadır

## Azər Həsrət: “Paşinyanın Rusiyanı Ermənistandan birdəfəlik çıxarma cəhdlərini alqışlayıram”

Bu barədə erməni şərhçi Naira Vanyan yazıb.

Erməni şərhçinin fikrincə, Paşinyan Ermənistanı yeni müharibəyə sürükləyir, geosiyasi güclərin davasına qarışır: ”Paşinyan Zelenskinin yolu ilə gedir, Ermənistanı isə ukraynalılaşdırır. Lakin əgər Ukrayna coğrafi mövqeyinə görə Rusiya ilə müharibədə Avropadan silah almaq imkanına malikdirsə, o silahlar Ermənistana necə çatacaq? Çünki iki qonşumuz düşməndir (Türkiyə və Azərbaycan nəzərdə tutulur - red.), digər qonşumuz İranla münasibətlər gərginləşib, Gürcüstan isə Bakı və Ankara ilə işləyir”.

Vanyan sual verir: Ermənistan Azərbaycan və Türkiyə ilə hərbi qarşıdurmaya gedirsə, Avropa Ermənistana silah göndərmək istəyəcəkmi?

”Birmənalı olaraq yox, çünki Avropa Ermənistanı Türkiyəyə hədiyyə edir. Türkiyə Avropanın bu bölgədəki rəsmi nümayəndəsidir. Antalya Diplomatiya Forumunda Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın dedikləri də bunu təsdiqlədi. Əslində, Klaar artıq Rusiyanın regiondan çıxarılması vəzifəsini tamamlanmış hesab edir və onun yerinə Türkiyənin regionda əsas oyunçu olduğunu açıqlayır. Yəni Ermənistan Türkiyə-Azərbaycan tandemi qarşısında tək qalır. Bu isə o deməkdir ki, Ermənistan bir dövlət olaraq məhv olacaq və Ermənistan ərazisi Böyük Turan yoluna çevriləcək”, - erməni şərhçi qeyd edib.

> “Rusiya bölgədən getdikdən sonra Azərbaycanla Ermənistan arasında problemlər aradan qalxacaq”

**Məsələ ilə bağlı ”Şərq”ə danışan siyasi şərhçi Azər Həsrət bildirib ki, Ermənistanda bu cür qeyri-sağlam düşüncə bütün fikirlərin üzərində əsas yer tutur:** ”Ermənistan dövlətinin nicatı Azərbaycan və Türkiyə ilə normal dost münasibəti qurmaqdan keçir. Ermənistan dövlət olaraq mövcudluğunu qorumaq istəyirsə, mütləq şəkildə Bakı və Ankara ilə anlaşmalıdır. Bunun başqa alternativi yoxdur. Moskva demək olar ki, Cənubi Qafqazda bütün mövqelərini itirib. Yəni Rusiyadan Ermənistana kömək yolu qalmayıb. Yeni axtarış nəticəsində Ermənistanın Fransada nicat yolu tapması da mümkün deyil. Çünki Paris Cənubi Qafqazda söz sahibi deyil. Burada bölgədən kənarda yerləşən yeganə söz sahibi olan dövlət qardaş Türkiyədir. Türkiyə də təbii olaraq Azərbaycanla birlikdədir. Antalya Diplomatik Forumunda qardaş Türkiyə bir daha vurğuladı ki, Ankara ilə anlaşmaq üçün İrəvan mütləq Bakı ilə yol tapmalıdır. Əks təqdirdə Ermənistanın Azərbaycanı qoyub, Türkiyə ilə yaxınlaşması heç bir nəticə verməyəcək”.

**Ekspert bildirib ki, Rusiyanın Ermənistana hücum etməsi ilə bağlı siyasətçilər tərəfindən müxtəlif fikirlər səsləndirilir:** ”Bunlar isə tamamilə cəfəng fikirlərdir. Paşinyanın Rusiyanı Ermənistandan birdəfəlik çıxarma cəhdlərini alqışlayıram. Cənubi Qafqazın başına gələn bütün bəlaların səbəbkarı Rusiyadır. Rusiya bölgədə qaldıqca həmin bəlalar da davam edəcək. Məsələn, son zamanlar sərhəddə baş verən atışmaların arxasında Moskva dayanır. Zəngəzur dəhlizinin açılmasının əngəllənməsində də Rusiyanın əli var. Ermənistan da Rusiyanın qorxusundan məsələnin üzərinə açıq şəkildə gedə bilmir. Eyni zamanda Ermənistan açılacaq dəhlizə Rusiyanın nəzarət etməsini istəmir, buna görə də proses uzanır. Ermənistanın Rusiyasızlaşdırılma cəhdlərinə Azərbaycan, Türkiyə və Gürcüstan da dəstək olmalıdır. Çünki Rusiya bölgədən getdikdən sonra Azərbaycanla Ermənistan arasında problemlər aradan qalxacaq”.

**Şahanə Ziyad**

# Azərbaycan tarixi sınaqdan üzüağ çıxdı

## Dövlətimiz neft və qaz resurslarımızdan ölkəmizin tərəqqisi üçün düzgün istifadə etməyi bacardı



**Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasları zamanı "Euronews" televiziyasına müsahibə verib. Dövlət başçısı vurğulayıb ki, uzunluğu 3500 kilometr olan kəmər artıq arzu deyil, reallıqdır və o, getdikcə daha çox ölkələri əhatə edir.**

Prezident bəyan edib ki, bizim təbii qazı yeni təyinat nöqtələrinə nəql etməyə imkan verən yeni interkonnektorlarımız var: "Bu, həqiqətən də, enerji təchizatının, enerji təhlükəsizliyi ilə bağlı məsələlərin coğrafiyasını tamamilə dəyişir. On il bundan əvvəl başladılan təşəbbüsün yaxşı nəticələrini göründə, əlbəttə ki, insan özünü hər zaman xoşbəxt hiss edir". Prezident əlavə edib ki, qazıntı yanacağı ilə zəngin ölkələr yaşıl enerjiyə keçiddə ön sıralarda olmalıdır: "Biz bunu ənənəvi ehtiyatlarımız çatışmadığına görə etmirik. Neft-qaz satışından əldə etdiyimiz maliyyədən, gəlirlərdən bərpaolunan enerjiyə sərmayə yatırmaq üçün istifadə etməklə töhfə vermək və buna ehtiyacın olduğuna dair ümumi bir anlayış yaratmaq istəyirik. Hər il biz Xəzər dənizinin getdikcə daha da dayazlaşmasının şahidi oluruq. Biz iqlim dəyişikliyinin fəsadlarını, təhlükəli fəsadlarını görürük, çaylarımızda su azalır, dağlarımızda qar azalır, Xəzər dənizində suyun səviyyəsi azalır. Əgər biz enerji və əzmlə bu məsələ ilə məşğul olmasaq, hamımız əziyyət çəkəcəyik". Dövlət başçısı qeyd edib ki, Azərbaycanın bərpaolunan enerji layihələri gündəliyi çox iddialıdır: "Beynəlxalq Maliyyə Korporasiyasının hesablamalarına əsasən, Xəzər dənizinin Azərbaycan sektorunda potensialı 157 qiqavat təşkil edir. Biz artıq bu mühüm yolu qət etməyə başlamışıq. Biz ola bilsin ki, 10 ilə ölkədə bərpaolunan enerjidən maksimum dərəcədə istifadə etməyi və daxili bazarda təbii qaz istehlakını azaltmağı planlaşdırırıq". Ölkə rəhbəri diqqətə çatdırıb ki, biz neft və qaz ehtiyatları olan bir çox ölkənin üzləşdiyi "neft lənətinə" düçar olmamağı bacardıq: "Biz nefti inkişafa çevirdik, sərvətin ədalətli paylanmasını təmin etməyə nail olduq. Son 20 ildə biz Azərbaycanda yoxsulluğun səviyyəsini 50 faizdən 5 faizə endirdik. Əfsuslar olsun, indi deyirlər ki, qazıntı yanacağı təhlükəlidir, mənfidir və günah bu ehtiyata sahib olan ölkələrdədir. Mənim mesajım ondan ibarət idi ki, bizə gördüyümüz işə görə, gəlirlərdən insanların ehtiyaclarını təmin etmək və yaşıl enerji gündəliyinə təkan vermək üçün necə istifadə etdiyimizə görə qiymət verin. Ümidvaram ki, mesajım eşidiləcək".

**Prezidentin mesajlarını "Şərq"ə dəyərləndirən politoloq Əlisahib Hüseynov deyib ki, digər neft-qaz ölkələrindən fərqli olaraq Azərbaycan tarixi sınaqdan üzüağ çıxmağı, neft və qaz resurslarımızdan ölkəmizin tərəqqisi üçün düzgün istifadə etməyi bacardı. Ekspertin sözlərinə görə, bu mənada Azərbaycanı yalnız Norveçlə müqayisə etmək düzgün olardı:**

"Çünki Norveç hökuməti də ölkənin karbohidrogen ehtiyatlarını gələcək inkişafın təməl sərmayəsi kimi düzgün yönləndirə bilib. Odur ki, Prezident İlham Əliyevin "Euronews"a müsahibəsində bu işdə yanaşmaların bir qədər dəyişilməli olduğunu vurğulaması praqmatik tövsiyədir. Bu, tamamilə yeni narrativdir, neft ölkələrinin dünəninə, bugününə və gələcəyinə fərqli baxışdır. O da tamamilə doğru tövsiyədir ki, qazıntı yanacağının təhlükəli və mənfi resurs olduğunu süni surətdə tirajlamaq və neft-qaz ölkələrini qaralamaq, günahlandırmaq əvəzinə, bu resursların tədarükündən əldə edilən gəlirlərin yerli hökumətlər tərəfindən ölkənin inkişafı və vətəndaşların ehtiyaclarının təmin edilməsi üçün necə istifadə edilməsinin nəticələri əsasında fikir yürüdülməlidir. Real nəticələri gözardı edib, bu və ya digər neft ölkəsini hədəfə almaq və yerli-yersiz tənqid etmək ədalətsizlikdir. Ona görə də dövlət başçımız həm mərasimdəki çıxışında, həm də "Euronews"a müsahibəsində diqqəti məhz bu məqama yönəltdi, neft-qaz ölkələrinə qarşı ədalətsiz münasibətə son qoymağa çağırdı və bu mesajının lazımi ünvanlarda məlum dairələr tərəfindən eşidiləcəyinə ümidvar olduğunu bildirdi. Beləliklə, Azərbaycan Prezidenti istər neft və qaz resurslarının mövcudluğuna, istərsə də yaşıl enerjiyə keçidə tamamilə yeni yanaşma təklif edir. Bu gün Azərbaycan yaşıl enerjiyə keçidi dəstəkləyən ölkələrin sırasında ən başda gələnlərdən biridir".

*Ə.Hüseynov vurğulayıb ki, Azərbaycan və ənənəvi qazıntı yanacağı ilə zəngin olan digər ölkələr yaşıl enerjiyə keçiddə, həqiqətən də, ön sıralarda olmalıdır:*

"Cənab Prezidentin də vurğuladığı kimi, biz bunu ənənəvi ehtiyatlarımız çatışmadığına görə etmirik, prosesə töhfə vermək və buna ehtiyacın olduğuna dair ümumi anlayış yaratmaq istəyirik. Azərbaycan bu prosesdə, heç şübhəsiz ki, aparıcı rol oynayacaq. Ümid edirik, Prezidentin səsləndirdiyi fikirlər beynəlxalq ictimaiyyət tərəfindən də ciddi şəkildə dəstəklənəcək".

**İsmayıl Qocayev**



**Azərbaycan-İran əlaqələrindəki diplomatik müstəvidə aktivləşmə diqqət çəkir. Ancaq Azərbaycanın Tehrandakı səfirliyinin fəaliyyətini bərpa etməsi məsələsi hələ də açıq olaraq qalır.**

Böyük bir ehtimalla Azərbaycan səfirliyin fəaliyyəti üçün Tehrandan tələb etdiyi təhlükəsizlik zəmanətlərini ala bilməyib. İranda hələ də Azərbaycanın regional reallıqlardakı güclənən strateji

# Müzakirələrin növbəti raundu başlayacaq

## İran Azərbaycanın maraqlarını nəzərə alaraq regionda yaranan reallıqlardan faydalanmağı hədəfləyir

mövqeyinə qarşı ənənəvi qısqanclıq dalğası qalmaqdadır. Bu, əsasən, arasıra rəsmi, intensiv olaraq isə qeyri-rəsmi kanallar vasitəsilə gündəmə gətirilir.

**Siyasi şərhçi Aqşin Kərimov deyib ki, Azərbaycanla İranın regional tranzit dəhlizinin yaradılması istiqamətində birgə irəliləyişi Qarabağda keçirilən antiterror tədbirlərindən sonra xeyli aktuallaşıb. Ekspertin sözlərinə görə, Tehranın regional tranzit dəhlizlərinə qarşı ritorikası əvvəlkitək nəzərə çarpmır:**

"Azərbaycanla İranın dil tapdığı nöqtə Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində daha qabarıq görünür. Bununla belə, hiss edilir ki, İranın Ermənistanla müttəfiqlik münasibətləri soyuyur. Bu o deməkdir ki, İran Zəngəzur dəhlizinə maneəni Ermənistanı mühafizə etməkdən ötrü yox, özünün maraqlarını irəliyə doğru aparmaq üçün inkişaf etdirir. İran Azərbaycan və Türkiyənin Zəngəzur dəhlizi vasitəsilə Mərkəzi Asiya ilə strateji birləşməsindən, bunun Tehranı regional izolyasiyaya salacağından qorxur. Bu prosesdə Tehran İrəvandan təcrid ediləcəyindən narahatdır, çünki onun məntiqinə əsasən, Zəngəzur dəhlizi İranın beynəlxalq çıxışlarından birini bloklayır. Amma Azərbaycanla İranın "Araz" dəhlizində iştirakı Tehranın bu qorxularını bir qədər azaldır. Çünki bu dəhliz Türkiyə ərazisi vasitəsilə İslam Respublikasına Aralıq dənizi və Qara dənizlərə çıxış imkanı verə bilər".

***"Hiss edilir ki, İranın Ermənistanla müttəfiqlik münasibətləri soyuyur. Bu o deməkdir ki, İran Zəngəzur dəhlizinə maneəni Ermənistanı mühafizə etməkdən ötrü yox, özünün maraqlarını irəliyə doğru aparmaq üçün inkişaf etdirir"***

**Analitikin qənaətincə, Azərbaycanla İranın rəqabət arenası böyük ölçüdə Zəngəzur dəhlizi ilə əlaqədar canlanır:** "Hərçənd Tehranın burada rəqabətədavamlılıq qabiliyyəti zəifləyə bilər. Çünki Azərbaycanın strateji müttəfiqi Türkiyə ilə yanaşı, həm Rusiya, həm Qərb, həm də Çinlə əlaqələrinin müsbət dinamikası onun Zəngəzur dəhlizi planı üçün fürsət yaradır. İran Hindistana alternativ yaratmağa qadir deyil, Rusiya isə ümumiyyətlə, Tehranla yaxşı əlaqələrinə rəğmən, Zəngəzur dəhlizi mövzusunda ona dəstək göstərmir. Bu amil İran diplomatiyasını Zəngəzur dəhlizi kontekstindəki yeni reallıqların içərisində regional əməkdaşlıq formatında iştiraka həvəsləndirir. Dördüncüsü, İrandan Azərbaycana narkotrafik üzrə canlanma problem olaraq qalmaqdadır. İran Azərbaycanla genişlənən iqtisadi-ticari əlaqələrini, müştərək maraqları rəhbər tutaraq qeyri-leqal marşrutlara qarşı birgə əməliyyatlar keçirmək seçimini edə bilər. Hərçənd ki, bu, o qədər də real görünmür, çünki İrandakı güc imperiyası yaradan təhlükəsizlik qüvvələri sanksiyalardan yayınmaq üçün qeyri-qanuni ticarətdən gələn gəlirlərə önəm verir.

Hər halda, problemlərə və mübahisəli mövzulara baxmayaraq, İran Azərbaycanın maraqlarını nəzərə alaraq regionda yaranan reallıqlardan faydalanmağı hədəfləyir.

Burada əsas həssaslıq riskləri tarazlaşdırmaq üçün düzgün qiymətləndirmələrlə əlaqəlidir. Yəqin ki, Azərbaycanla İran regional təhlükəsizlik aspektləri ilə əlaqədar müzakirələrin növbəti raunduna başladacaqlar".

**İsmayıl Qocayev**





# Qaz probleminin kökü idarəetmədədir

## Sahə üzrə məsul şəxslər qohumbazlıq amili ilə deyil, peşəkarlıq və idarəetmə qabiliyyətinə görə təyin edilməlidir

Qış davam edir, "Azəriqaz"ın əhaliyə xəbərdarlıqları da həmçinin. Xəbərdarlıq da nədən ibarətdir, təbii qazın verilməsində yaranacaq fasilələrlə bağlı. Bu gün (martın 4-də) səhər saatlarından "Sərdarov zavodu (Əhali)" orta təzyiqli qaz kəmərində qaz təchizatında fasilə yaranacağına dair "Azəriqaz"ın məlumatı var. Bildirilir ki, "Digah" QPS-də "Balaxanı Sənaye" kollektorundan qidalanan "Sərdarov zavodu (Əhali)" orta təzyiqli qaz kəmərində aşkar olunmuş sızmanın ləğvi ilə əlaqədar təbii qazın verilməsi dayandırılacaq. Təmir işləri aparılan müddətdə Binəqədi rayonunun Binəqədi qəsəbəsinin, Binəqədi kəndinin, Mədən ərazisinin, Baksol yolunun və Binəqədi şosesinin qaz təchizatında müvəqqəti fasilə yaranacaq.

2 gün əvvəl oxşar xəbər Xaçmaz rayonu ilə bağlı idi. Əhali qrupuna xəbərdarlıq edilmişdi ki, təbii qazın verilməsi dayandırılacaq. Bu cür məlumatları sadalamağa başlasaq, çox uzun çəkəcək. Qazın verilməsində yaranan fasilələrə müxtəlif səbəblərdən qaynaqlandığı göstərilir; qaz sızması, hansısa qaz kəmərinin "ana xəttə" qoşulması, kəmərdə yaranmış korroziya, təmir və sair. Yaxşı, anlaşıldı, təmir lazımdır, hətta vacibdir. Amma niyə qışda? Bəs qışa hazırlıq müddətində nə tədbirlər görülür ki, təmir və sair işlər payıza, qışa qalır?

**Neftçilərin Hüquqlarının Müdafiəsi Komitəsinin sədri, hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı "Şərq"ə açıqlamasında qeyd etdi ki, problemin kökü idarəetmədədir:**

- Qaz istismarında problemlər yaranmasın deyə, sahə üzrə məsul şəxslər qohumbazlıq amili ilə deyil, peşəkarlıq və idarəetmə qabiliyyətinə görə təyin edilməlidir.

**M.Qəhrəmanlı bildirdi ki, bütün kommunal sahələrdə olduğu kimi qaz istismarı sahəsində də qışa hazırlıq planı tərtib edilir:**

***"Azəriqaz" abonentlə müqavilə bağlanarkən 24 saat ərzində təbii qazla fasiləsiz təminedilmə öhdəliyi götürür, amma götürdüyü öhdəliyi yerinə yetirmir"***

- İlin əvvəlindən bu plan hazırlanır və təsdiqlənir. Əvvəllər hətta 1-2 il öncədən tərtib edilirdi, çünki bütün ölkə ərazisini əhatə etməliydi. Bu, elektrik enerjisi sahəsində də belədir, yollar, istilik sistemi, ümumilikdə şəhərin qışa hazırlığında da. Hər mövsümdə "qışa hazırlıq" başlığı altında tədbirlər planı hazırlanır. Boruların dəyişdirilməsi, təmir və sair. bu plana daxildir. Tədbirlər planı yay-payız aylarından etibarən icra edilməlidir ki, havalar soyuyanda qaz kəmərləri, paylayıcı, ötürücü şəbəkələr işlək vəziyyətdə olsun. Məgər bir nəfər bu işlə məşğuldur, işləri görüb çatdıra bilmir? Hər inzibati rayonda, hər bölgədə qaz istismar idarələri var, işçiləri, fəhlələr var. İşlər plana uyğun şəkildə aparılmalıdır ki, qışda problemlər yaranmasın. Hər bir məsul şəxs vəzifəsinin öhdəsindən gəlməlidir. Qış vaxtı əhaliyə xəbərdarlıq edilməsinin nə mənası var? Neyləməlidir əhali, odun sobasına hazırlıq görsün?!. Sonra da başqa xəbərdarlıqlar edilir ki, "qeyri-standart qaz cihazlarından istifadə etməyin". Mənzilə təbii qazın verilməsi dayanıbsa, soyuq havada vətəndaş nə etməlidir? Əlbəttə ki, başqa üsullara əl atacaq ki, evini isitsin. İndiki çətin vəziyyətdə, virusların, xəstəliklərin yayıldığı bir vaxtda qazın verilməsində fasilə yaranması, əhalini daha da çətin vəziyyətə salmaqdır.

*M.Qəhrəmanlı bildirdi ki, hər dəfə hansısa bölgədə, paytaxtın hansısa ərazisində qazın verilməsində fasilə yaranır:*

- İşlər səhər başlayır, axşam bitir. Abonent səhərdən axşamadək qazsız qalır. Bu, abonentlərin təbii qazla təchizatında öhdəliyin yerinə yetirilməməsidir. Halbuki abonentlə müqavilə bağlanarkən 24 saat ərzində təbii qazla fasiləsiz təmin edilmə öhdəliyi götürür "Azəriqaz". Amma götürdüyü öhdəliyi yerinə yetirmir. Dəfələrlə məsələ qaldırılıb, qaz itkisi, ödənişlərdə problemlər, o cümlədən də abonentlərin qaza tətbiq edilən limitlə bağlı narazılıqları barədə. Amma sanki heç nə eşitmirlər, heç nə duymurlar. SOCAR səsini çıxarmır. Əhaliyə hesabat verilmir. Hər hansı açıqlama yoxdur. Yalnız statistik məlumatlar - filan yerə qaz kəməri çəkildi, filan yerdə təmir aparıldı. Əhali 24 saat fasiləsiz təbii qazla təmin edilməli olduğu halda, niyə buna əməl edilmir, müqavilə şərtləri niyə pozulur və buna görə kim məsuliyyət daşıyır, cavabı yoxdur.

**Məlahət Rzayeva**

# Ermənistan mina xəritələrini verməyə məcbur edilməlidir

## Əks təqdirdə daha çox vətəndaşımız xəsarət ala, həyatını itirə bilər



**Martın 3-də Ağdam rayonunun Əhmədağalı kəndi ərazisində mina hadisəsi baş verib. Daxili İşlər Nazirliyi, Baş Prokurorluq və Minatəmizləmə Agentliyinin (ANAMA) Mətbuat xidmətinin birgə məlumatına görə, 1995-ci il təvəllüdlü Ağdam rayon sakini Abbasov Bəxtiyar Yaqub oğlu keçmiş təmas xəttində, minalardan təmizlənməmiş ərazidə heyvan otararkən piyada əleyhinə mina partlayışı nəticəsində hər iki ayağından xəsarət alıb.**

Xəsarət alan şəxs xəstəxanaya təxliyyə edilib. AR DİN, Baş Prokurorluq və ANAMA bir daha vətəndaşları təhlükəsizlik qaydalarına riayət etməyə, bələd olmadıqları ərazilərə daxil olmamağa və təhlükə bildirən bütün əlamətlərə diqqətlə yanaşmağa çağırıb. Azərbaycan Xarici İşlər Nazirliyi "X" səhifəsində bildirib ki, Ermənistanın yerləşdirdiyi minalar ciddi problem olaraq qalır, müxtəlif bəhanələrlə dəqiqləşdirilmiş mina xəritələrini verməkdən imtina edir. Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva deyib ki, Ermənistanın otuz ilə yaxın işğal dövründə torpaqlarımızda basdırdığı minalar mülki şəxslərin və hərbi qulluqçuların həyat və sağlamlığına ciddi təhlükə yaratmaqda davam edir: "Növbəti mina qurbanı təsərrüfatla məşğul olan mülki şəxs olub. Belə ki, 2024-cü il 3 mart tarixində Ağdam rayonunun Əhmədağalı kəndi ərazisində baş vermiş mina partlayışı nəticəsində bir mülki şəxs ağır yaralanıb. İkinci Qarabağ müharibəsindən indiyədək 340-dan çox soydaşımız minaya düşərək həlak olub və ya xəsarət alıb. Beynəlxalq ictimaiyyət Ermənistan hakimiyyətinə torpaqlarımızda basdırılmış minaların dəqiq xəritələrini ölkəmizə təqdim etməsi üçün ciddi təzyiq göstərməlidir". Qeyd edək ki, ümumilikdə 2020-ci ilin noyabr ayından indiyədək 346 azərbaycanlı qurban olub.

**Millət vəkili Ceyhun Məmmədov deyib ki, Azərbaycanın bütün müraciətlərinə və çağırışlarına rəğmən, İrəvan hakimiyyəti doğru mina xəritələrini Bakıya verməkdən imtina edir. Deputat vurğulayıb ki, Ermənistanın mina xəritələrini Azərbaycana verməməsi və mina terroru davam etdirməsi insanlarımızın həyatını təhlükə altında qoyur:**

"Bu məsələ regionda gərginliyin qalmasına, sülh prosesinin ləngiməsinə də şərait yaradır. Problemin həlli üçün addımların atılması qaçılmazdır. Qərb dövlətləri, beynəlxalq qurumlar Ermənistana təzyiqlər etməlidir. İrəvan məcbur edilməlidir ki, dəqiq mina xəritələrini Azərbaycana versinlər. Yaxşı olar ki, ölkəmiz əleyhinə qərəzli bəyanatlar səsləndirən, qətnamələr hazırlayan beynəlxalq təşkilatlar İrəvana çağırış etsinlər. Mina xəritələri Azərbaycana verilmədiyi müddətcə daha çox vətəndaşımız xəsarət ala, həyatını itirə bilər. Dünya birliyi ermənilərin mina terrorunu qəsdən davam etdirməsinə biganə və laqeyd qalmamalıdır. Ermənistan mina xəritələrini verməyə məcbur edilməlidir".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi**



# Kibertəhlükəsizlik prioritet sahəyə çevrilir

## 3 il ərzində 1000-dən çox peşəkar mütəxəssis hazırlanacaq

**Bakıda "UK Cybersecurity Expo" sərgisinin açılışı olub. Tədbirdə Britaniyanın kibertəhlükəsizlik şirkətlərinin nümayəndələri iştirak ediblər. Onlar bu sahədə imkanlarını nümayiş etdirmək və yerli şirkətlərlə tərəfdaşlıq əlaqələri qurmaq üçün sərgiyə qatılıblar.**

Böyük Britaniyanın Azərbaycandakı səfiri Ferqus Old kibertəhlükəsizlik xidmətləri üzrə dünyada lider olan Böyük Britaniyanın bu sahədə Azərbaycanla təcrübə mübadiləsi aparmağa hazır olduğunu deyib: "Kiberhücumların kritik infrastrukturu hədəf aldığı, iqtisadiyyatımızı və cəmiyyətimizi təhdid etdiyi bir vaxtda bu təhlükələrlə mübarizə çox vacibdir. Sevindirici haldır ki, Azərbaycan Prezidenti İlham Əliyev kibertəhlükəsizliyin inkişafını Azərbaycanın əsas prioritetlərindən birinə çevirib. Böyük Britaniya isə yaxın tərəfdaş kimi bu sahədə öz təcrübəsini bölüşməyə hazırdır".

Səfirin sözlərinə görə, Böyük Britaniya və Azərbaycan arasında kibertəhlükəsizlik sahəsində əməkdaşlıq üçün böyük potensial var. "Böyük Britaniyanın dörd aparıcı şirkəti kibertəhlükəsizliklə bağlı bugünkü tədbirdə iştirak etmək üçün Azərbaycana gəlib. Onlar Böyük Britaniyanın bu sahədə aparıcı təcrübəsinin nə olduğunu və Azərbaycanla necə daha səmərəli işləyə biləcəyimizi izah etmək üçün bu bazarda fəaliyyət göstərən həm hökumət, həm də özəl sektordan bəzi potensial tərəfdaşlarla görüşəcək". F. Oldun sözlərinə görə, Böyük Britaniya kibermüdafiə baxımından dünyada üçüncü yerdə qərarlaşıb: "Hesab edirik ki, Azərbaycana təklif edəcəyimiz nəsə var".

Qeyd edək ki, ölkəmizin elmi-texniki tərəqqisində mühüm rol oynayan informasiya-kommunikasiya texnologiyalarının dinamik inkişafı bu sahədə təhlükəsizlik risklərinin idarə edilməsini və informasiya infrastrukturlarının kibertəhdidlərə qarşı dayanıqlığının artırılmasını da labüd edir. Bu isə öz növbəsində təhlükəsizliyin təmin olunmasında yeni yanaşmalar tələb edir və informasiya təhlükəsizliyinin etibarlı təminatı baxımından dövlətlərin məsuliyyətini xeyli artırır. Təsadüfi deyil ki, kritik informasiya infrastrukturlarının kibermüdafiə qabiliyyətinin gücləndirilməsi müasir dövrün ciddi əhəmiyyət kəsb edən çağırışlarından və təhlükəsizlik cəhətdən vacib vəzifələrdən hesab olunur.

"Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası"nda da kritik informasiya infrastrukturlarının təhlükəsizliyinin təmin edilməsinə xüsusi yer verilib. Həmçinin son illər bu istiqamətdə görülən işlər, qəbul edilən normativ hüquqi aktlar, yaradılan kiberməktəblər də bunun bariz nümunəsidir.

Ölkə başçısının müvafiq Fərmanına uyğun olaraq, hazırda milli kibermərkəzin qurulması istiqamətində işlər həyata keçirilir. Kritik informasiya infrastrukturlarının təhlükəsizliyinin təmin edilməsi, eləcə də kibertəhdidlərə qarşı mübarizə işinin təşkili yönümündə tərəfdaş ölkələrin xüsusi xidmət orqanları və kibertəhdidlərə qarşı mübarizə sahəsində qabaqcıl texnologiya şirkətləri ilə əməkdaşlıq genişləndirilir və bütün bunlar milli kiberməkanın müdafiə qabiliyyətinin artırılmasına, həmçinin qlobal kiberməkanda mövqeyimizin gücləndirilməsinə xidmət edir.

Ekspertlər isə hesab edir ki, Böyük Britaniya və Azərbaycan arasında kibertəhlükəsizlik sahəsində əməkdaşlıq ölkəmizin təhlükəsizliyinin qorunmasında mühüm rol oynayacaq.

**Böyük Britaniyanın Azərbaycandakı səfirinin açıqlamalarını yüksək qiymətləndirən Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz "Şərq"ə bildirib ki, Britaniya ilə əməkdaşlıq ölkəmizin kiber mühiti və ümumiyyətlə, informasiya texnologiyaları mühitinin inkişafı üçün mühüm əhəmiyyət kəsb edir:**

"Son illər Azərbaycanda kibertəhlükəsizliklə bağlı infrastrukturun və qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində ciddi addımlar atılıb. İnformasiya təhlükəsizliyi və kibertəhlükəsizlik indiki məqamda milli təhlükəsizliyin əsas tərkib hissəsidir və hazırda vətəndaşların, dövlət və özəl qurumların təhlükəsizliyi prioritet məsələ seçilərək, bu istiqamətdə yeni layihələr üzərində də çalışılır. Kibertəhlükəsizlik sahəsində mütəxəssislərin hazırlığı məqsədilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti ilə İsrailin tanınmış "Technion" Universiteti arasında müqavilə imzalanıb. Müqaviləyə əsasən, fəaliyyətə başlayacaq Azərbaycan Kibertəhlükəsizlik Mərkəzi növbəti 3 il ərzində 1000-dən çox peşəkar mütəxəssis hazırlamağı hədəfləyib.

**"Böyük Britaniya və Azərbaycan arasında kibertəhlükəsizlik sahəsində əməkdaşlıq da ölkəmizin təhlükəsizliyinin qorunmasında mühüm rol oynayacaq"**

Böyük Britaniya da dünyada kibertəhlükəsizlik sahəsində ən öndə gedənlərdən biridir. Bu sahədə Britaniyanın Azərbaycanla təcrübə mübadiləsi aparması ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edir. Ümumiyyətlə, yaxşı haldır ki, son bir-iki il ərzində ölkədə informasiya texnologiyaları, xüsusilə də kibertəhlükəsizlik sahəsində mütəxəssislərin hazırlanmasında xeyli aktivlik müşahidə olunur. Əvvəllər bu sahədə universitetlər və az sayda qurumlar, "Step İT Academy", "Code Academy" və sair, bu tip qurumlar peşəkar İT hazırlığı ilə məşğul olurdular. İndi xeyli sayda yeni qurumlar bu istiqamətdə fəaliyyətə başlayıblar. Ümid edirəm, bu sektorda yeni olan iddialı qurumlar keyfiyyətli mütəxəssis hazırlığı sahəsində qarşıya qoyulan məqsədlərə çata biləcəklər".

**O.Gündüz hesab edir ki, xüsusi rabitə, informasiya və kiber sahədə, ümumiyyətlə, təhlükəsizlik sahəsində milli maraqlarımızın qorunması baxımından atılan addımlar alqışalayiqdir:**

"Müsbət haldır ki, ölkəmizdə kibertəhlükəsizlik sektorunda ciddi irəliləyiş və inkişaf var. Düşünürəm ki, gələcəkdə Azərbaycanda yeni bir mühit - kritik informasiya mühiti formalaşacaq. Bu mühitin formalaşması üçün ən mühüm məsələ kadr təminatı və qanunvericiliyin təkmilləşməsidir".

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Ermənistan Zəngəzur dəhlizinin açılmasına yaşıl işıq yandırmalıdır

## Əks təqdirdə Azərbaycan böyük güclərin siyasi və mənəvi dəstəyini alaraq, alternativ imkanlardan istifadə edəcək



**Ermənistan heç vaxt Azərbaycana öz ərazisində dəhliz verməyə razı olmayıb. Bunu Ermənistan parlamentinin vitse-spikeri Ruben Rubinyan Antalya Diplomatik Forumunda deyib.**

"Azərbaycan "Zəngəzur dəhlizi" ifadəsini işlətməkdə davam edir. Ermənistanda Zəngəzur yoxdur. Ermənistan heç vaxt Azərbaycanın öz ərazisindəki hər hansı dəhlizə çıxışına razı olmayıb. Biz ölkələrimizin suverenliyi və ərazi bütövlüyü əsasında Cənubi Qafqazın kommunikasiyasını açmaq istəyirik", - Rubinyan bildirib.

**Rubinyanın fikirlərinə münasibət bildirən siyasi şərhçi Elmir Səftərov "Şərq"ə vurğulayıb ki, İkinci Qarabağ müharibəsini yekunlaşdıran 2020-ci il üçtərəfli bəyanatda Ermənistan "bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsi" öhdəliyini üzərinə götürüb:**

"Bəyanatın 9-cu bəndində göstərilib ki, "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycanın qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir".

Bəyanatdan keçən 3 ildən artıq zaman ərzində Azərbaycan öz üzərinə düşən öhdəlikləri yerinə yetirərək Zəngəzur dəhlizi ilə bağlı işləri sürətli şəkildə davam etdirir. Ermənistan isə sadəcə prosesləri sabotaj etməklə məşğuldur. Eyni zamanda Fransa və Hindistan tərəfindən silahlandırılan Ermənistan Azərbaycanın xəbərdarlıqlarına məhəl qoymayaraq götürdüyü öhdəlikləri yerinə yetirmir. Bu baxımdan da Azərbaycan və Ermənistan tərəflərinin görüşlərindən, sülh müzakirələrindən ciddi nəticələr əldə edilməyəcəyi görünür. Çünki humanitar məsələlərdən olan mina xəritələri Ermənistan tərəfindən Azərbaycana verilməyib. Digər bir tərəfdən Ermənistanın Azərbaycanla şərti sərhəddə üzbəüz mövqelərində Avropa İttifaqı missiyasının və Fransa Jandarmasının heyətlərindən ibarət muzdlu döyüşçülərin də yer aldığı, hər an ciddi təxribata hazır olan dəstələr var. Bu da o anlama gəlir ki, Ermənistan sülh müzakirələri masasından Qərb, xüsusilə də Fransa tərəfindən qaldırılıb".

**Ekspert qeyd edib ki, Azərbaycanda növbədənkənar prezident seçkilərinin keçirilməsinin səbəblərindən biri də 2024-cü ilin Zəngəzur dəhlizinin reallaşması baxımdan əhəmiyyətli tarixin olmasıdır:**

"Oxşar iddialara nəzər salsaq görərik ki, 2023-cü ilin sonunda ABŞ dövlət katibi Antoni Blinkenin Azərbaycanın Ermənistana hücum edəcəyini bildirməsi, Avropa İttifaqının ali nümayəndəsi Cozef Borrelin oxşar fikirləri, həmçinin Fransanın Ermənistanı silahlandırmasının guya ona hücumla əlaqələndirilməsi yaxın zamanlarda şərti sərhəddə vəziyyətin kəskinləşəcəyini deməyə əsas verir. Fransanın, Hindistanın, hətta İranın da ehtiyat etdiyi Zəngəzur dəhlizinin açılması və Türkiyə ilə Azərbaycanın birləşməsi məsələsinin reallaşmaması üçün İrəvana dəstək göstərilir. Bu da Ermənistanda özgüvən yaradır və onu yeni təxribatlara ruhlandırır. Türkiyə, Rusiya, Çin, Böyük Britaniya isə Zəngəzur dəhlizinin açılmasının tərəfdarıdır. Əgər Ermənistan Zəngəzur dəhlizinin açılması ilə razılaşmasa, Azərbaycan böyük güclərin siyasi və mənəvi dəstəyini alaraq, alternativ imkanlardan istifadə edəcək".

**Şahanə Ziyad**

# Geri dönüşü yoxdur

## Ermənistan Rusiya ilə bağlarını tamamilə qoparacaq



**"Rusiyanı bölgədən sıxışdırıb çıxarmaq həm Ermənistan, həm də Qərb üçün çətin və kifayət qədər ağrılı proses olacaq"**

**Ermənistanın hakim "Vətəndaş Müqaviləsi" Partiyasının deputatları Rusiya sərhədçilərinin "Zvartnots" beynəlxalq hava limanında (İrəvan) yerləşməsindən narahatdırlar.**

Bu barədə partiyanın parlamentdəki fraksiyasının sədrinin müavini Artur Ovannisyan bildirib. Onun sözlərinə görə, bu məsələ təkcə onları yox, Ermənistan ictimaiyyətinin əksəriyyətini də narahat edir:

"Bu məsələ bizim siyasi komandamızın gündəmindədir. Hazırda müzakirələr aparılır. Qərar olanda hamımız bundan xəbərdar olacağıq".

Politoloqlar isə hesab edir ki, proses Ukrayna ssenarisinin təkrarlanmasına və Cənubi Qafqazda genişmiqyaslı müharibəyə apara bilər.

**Mövzunu "Şərq"ə şərh edən politoloq Məhəmməd Əsədullazadə isə hesab edir ki, Ermənistanla Rusiya arasındakı ikitərəfli münasibətlər böhrana uğrayıb:**

"Son günlər isə əsas müzakirə predmeti olan bu məsələ, yeni Rusiya sərhədçilərinin "Zvartnots" beynəlxalq hava limanından çıxarılması münasibətləri daha da gərginləşdirir. Şübhəsiz ki, Ermənistan bu addımı Qərbin təlimatı ilə atmağa hazırlaşır və düşünürəm ki, Baş nazir Nikol Paşinyan anti-Rusiya siyasətini sona qədər davam etdirəcək. Erməni cəmiyyətinin də bu məsələdə siyasi hakimiyyətə dəstək verməsi onu göstərir ki, Paşinyan yeni Konstitutsiya Aktını qəbul etdikdən sonra Rusiya ilə bağlarını tamamilə qoparacaq. Rusiyanın Ermənistan ərazisindəki hərbi bazasının və sərhədçilərinin çıxarılmasına da nail olacaq. Bütün bunlar fonunda Rusiyanın Ermənistana qarşı iqtisadi və siyasi təzyiqləri də qaçılmaz olacaq. Rusiyanın əli ilə Ermənistanda hansısa narazılıq və silahlı insidentlərin də baş verməsi istisna hal deyil. İstənilən halda Rusiyanı bölgədən sıxışdırıb çıxarmaq həm Ermənistan, həm də Qərb üçün çətin və kifayət qədər ağrılı proses olacaq".

**Şəymən**

# Rusiyanın qorxulu yuxuları çin olur

## Lap yaxınlıqda, sərhəddə NATO təlimləri başlayıb

**Bu gün Şimali Atlantika Alyansının (NATO) "Nordic Response 24" adlı genişmiqyaslı hərbi təlimləri başlayır.**

KİV-də yayılan məlumatlara əsasən, təlimlər Finlandiyanın şimalında, İsveçdə və Norveçdə keçirilir.

Manevrlərə Norveç rəhbərlik edir. Təlim martın 15-dək davam edəcək.

Bu, Finlandiyanın NATO təlimlərində ilk iştirakıdır. Rəsmi Helsinki manevrdə 4100-ə yaxın hərbi qulluqçu ilə təmsil olunur.

"Nordic Response 24" quru, dəniz və hava manevrlərindən ibarətdir. Təlimdə 14 ölkədən ümumilikdə 20 minə yaxın hərbçi iştirak edir.

**Mövzu ilə əlaqədar "Şərq"ə açıqlamasında tanınmış jurnalist, politoloq Fuad Abbasov bildirib ki, Rusiya sərhədlərinə ən yaxın məsafədə olan Finlandiyada belə təlimin keçirilməsi Moskvanın qorxulu yuxusudur:**

"Ukrayna müharibəsinin başlamasının ən başlıca səbəbi rəsmi Kiyevin Alyansa yaxınlaşması, avropalaşması və Rusiya sərhədlərində NATO ölkəsi olmaq bəhanəsi idi. İndi isə Rusiya prezidentinin doğma şəhəri olan Sankt-Peterburq ilə tam sərhəddə olan Finlandiya NATO-ya üzv olub. Eyni zamanda NATO ilə genişmiqyaslı təlimlərə başlayıb. Rusiya tərəfindən cavab gözlənilə bilər. Bu cavab tədbiri nəticəsində Litva, Latviya, Estoniya və Finlandiyaya Rusiya iddia qaldıra bilər. Hətta bu gün Rusiyanın keçmiş Prezidenti və Baş naziri Dmitri Medvedyevin nitqi səsləndi. Bütün beynəlxalq hüquq normalarına zidd olan Medvedyev Ukraynanın rus torpaqları olduğunu iddia etdi".



**Şahanə**

# Martın 3-də keçirilən buraxılış imtahanı müsbətdir

## Maksimum nəticə toplayan şagirdlərin sayı əvvəlki illərlə müqayisədə daha çox olacaq



**Dövlət İmtahan Mərkəzi (DİM) martın 3-də tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirib. DİM-dən verilən məlumatda bildirilib ki, 30 şəhər və rayonda təşkil olunan imtahanda 52 min 267 şagird iştirak edib.**

İmtahanda iştirak etmək üçün tələb olunan sənədləri qaydasında olmayan - şəxsiyyət vəsiqəsini evdə unudan, etibarlılıq müddəti başa çatan, şəxsiyyəti təsdiq edən sənədin surəti ilə imtahana gələn və ya vəsiqəsində şəkli olmadığı üçün məktəbdən verilən şəkilli arayışı özü ilə gətirməyən şagirdlər də olub.

Qeyd olunub ki, imtahanda ümumilikdə 36 nəfər sağlamlıq imkanları məhdud (gözdən əlil, serebral iflic, eşitmə əngəlli və digər) abituriyent də iştirak edib: "Bu abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında xüsusi zallar ayrılıb. Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən olunmuş şəxslərə fərdi nəzarətçilər təyin edilib. İlkin məlumatlara əsasən, 2 nəfərdə mobil telefon, 1 nəfərdə isə ağıllı saat aşkarlandığı üçün imtahandan xaric edilib. Qeyd olunan hallarla bağlı araşdırma aparılır.

İmtahanlarda istifadə olunan yazılı cavab tələb edən açıq tipli tapşırıqların yoxlanılması vaxt tələb etdiyindən nəticələrin yaxın 4 həftə ərzində elan olunması nəzərdə tutulur.

**Təhsil eksperti Kamran Əsədov da "Şərq"ə açıqlamasında martın 3-də keçirilən buraxılış imtahanını müsbət qiymətləndirib. Onun sözlərinə görə, maksimum nəticə toplayan şagirdlərin sayı əvvəlki illərlə müqayisədə daha çox olacaq:**

"Mart ayının 3-də Dövlət İmtahan Mərkəzi tərəfindən Azərbaycanın orta ümumtəhsil məktəblərinin 11-ci sinifində təhsil alan 2000-ə yaxın şagird üçün keçirilmiş buraxılış imtahanları əvvəlki illərdən fərqlənirdi. Ən ciddi fərq ondan ibarətdir ki, müstəqillik tariximizdə ilk dəfə olaraq bütün Azərbaycan ərazilərində buraxılış imtahanları keçirilib. Bu, dövlətimiz və millətimiz üçün çox böyük xoşbəxtlik və qürurdur.

İkinci yenilik isə ondan ibarətdir ki, buraxılış imtahanlarında ilk dəfə olaraq imtahan başa çatdıqdan sonra iştirakçılara sual kitabçalarını özləri ilə aparmağa icazə verilib. İmtahanda istifadə edilmiş test tapşırıqlarının (qapalı və kodlaşdırıla bilən açıq tipli) cavabları da imtahandan dərhal sonra Mərkəzin saytına yerləşdirilib. Bu da kifayət qədər müsbət haldır. Bu isə o deməkdir ki, imtahan və qəbul stressi yaşayan şagirdlər bir aya yaxın vaxt ərzində nəticələrini gözləməyəcəklər. Test tapşırıqlarını müəllimləri, həmçinin DİM-in saytındakı etalonlarla yoxlamaqla topladıqları ilkin nəticələrlə bağlı məlumatlı olacaqlar.

Biz də mütəxəssis olaraq sual kitabçaları əsasında 52 min şagirdin iştirak etdiyi buraxılış imtahanının ilkin nəticələrini təhlil etdik. Azərbaycan dili fənnindən olan test tapşırıqları orta ümumtəhsil məktəblərinin tədris proqramına uyğun idi. Kurrikulum məzmun standartları demək olar ki, reallaşmışdı. Xüsusi diqqət çəkən isə dilin qrammatik qaydalarını özündə əks etdirən yeni tipli suallar idi.

Riyazi bilgilərlə bağlı test tapşırıqları da orta ümumtəhsil məktəblərinin tədris proqramına tamamilə uyğun idi. Artıq məktəblərin tədris proqramında mövcud olan məntiqi riyazi tapşırıqlar da buraxılış imtahanında şagirdlərə ünvanlanan test tapşırıqları arasında yer almışdı. Riyaziyyat fənnindən olan tapşırıqlarda da kurrikulumun məzmun standartları reallaşmışdı. Xarici dillə bağlı da vəziyyət kifayət qədər ürəkaçan idi. Sevindirici hal ondan ibarətdir ki, şagirdlərimizin ingilis dili ilə bağlı bilikləri sadəcə nəzəri deyil, onların praktiki bacarıqlarını yoxlamaq üçün dinlənmə tipli test tapşırıqlarından istifadə edilir. Mətn tipli test tapşırıqlarının işlənməsi də əvvəlki illərlə müqayisədə kifayət qədər yaxşı idi".

**K.Əsədov deyib ki, martın 3-də buraxılış imtahanı verən şagirdlər pandemiya dövründə tədrisdən geri qalsalar da, boşluqların aradan qaldırılması istiqamətində Elm və Təhsil Nazirliyi tərəfindən kifayət qədər uğurlu addımlar atılıb:**

"2022 və 2023-cü illərdə keçirilən buraxılış imtahanları ilə müqayisədə builki imtahan nəticələrinin daha yüksək olacağını güman edirəm. Hətta maksimum nəticə toplayan şagirdlərin sayının çox olacağını proqnozlaşdırırıq. Bu qənaətə həm imtahandan çıxan şagirdlər arasında apardığımız sorğu, həm də Mərkəz olaraq test tapşırıqları üzərində apardığımız analizlər əsasında gəlmək olur. Tədris proqramına uyğun olan test tapşırıqları Dövlət İmtahan Mərkəzinin Test Bankında yer alan tapşırıqlara da uyğun idi. Ötən illərlə müqayisədə test tapşırıqları daha rahat idi. Onun da deyim ki, ümumilikdə 85 test tapşırığına cavab verən şagirdlərin toplayacağı maksimal bal 300-dür. Hər fənn üzrə toplanmalı bal isə 100 baldır".

**Şəymən**

## Elanlar

("Əmlak Hərrac Mərkəzi")

**LOT1498məlumat:** Abşeron rayonu, Novxanı kəndi ünvanında yerləşən 0.10 ha torpaq sahəsinə dair 01 mart 2024-cü il, saat 10:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin açıq hərracın iştirakçısı olmadığından hərrac baş tutmamış və bununla əlaqədar olaraq 01.03.2024-cü il tarixli hərracın baş tutmaması barədə protokol tərtib edilmişdir.

**LOT1498** Abşeron rayonu, Novxanı kəndi ünvanında yerləşən 0.10 ha torpaq sahəsinə dair təkrar hərrac 19 mart 2024-cü il, saat 10:00 (növbəlik qaydasında) tarixinə təyin olunmuşdur. Əmlakın təkrar hərracda satış qiyməti 28.900 (iyirmi səkkiz min doqquz yüz) manat təşkil edir.Hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 1.445(bir min dörd yüz qırx beş) manat məbləğində beh ödənilməlidir.

LOT1497 məlumat: Bakı şəhəri, Binəqədi rayonu, Mir Cəlal küçəsi 41 ünvanında yerləşən 56 saylı mənzilədair 01 mart 2024-cü il, saat 10:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin açıq hərracın iştirakçısı olmadığından hərrac baş tutmamış və bununla əlaqədar olaraq 01.03.2024-cü il tarixli hərracın baş tutmaması barədə protokol tərtib edilmişdir.

**LOT1497** Bakı şəhəri, Binəqədi rayonu, Mir Cəlal küçəsi 41 ünvanında yerləşən 56 saylı mənzilədair təkrar hərrac 19 mart 2024-cü il, saat 10:00 (növbəlik qaydasında) tarixinə təyin olunmuşdur. Əmlakın təkrar hərracda satış qiyməti 51.850 (əlli bir min səkkiz yüz əlli) manat təşkil edir.Hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 2.593(iki min beş yüz doxsan üç) manat məbləğində beh ödənilməlidir.

**LOT1476 məlumat:** Abşeron rayonu, Qobu qəsəbəsi, Mehdi Hüseynzadə küçəsi ünvanında yerləşən 76 saylı fərdi yaşayış evinə dair 01 mart 2024-cü il, saat 10:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar açıq hərracın iştirakçısı olmadığından hərrac baş tutmamış və bununla əlaqədar olaraq 01.03.2024-cü il tarixli hərracın baş tutmaması barədə protokol tərtib edilmişdir.

**LOT1475 məlumat:** "Hundai Elantra" minik markalı, 90-GC-092 dövlət qeydiyyat nişanlı avtomobilə dair 01 mart 2024-cü il, saat 10:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar açıq hərracın iştirakçısı olmadığından hərrac baş tutmamış və bununla əlaqədar olaraq 01.03.2024-cü il tarixli hərracın baş tutmaması barədə protokol tərtib edilmişdir.

**VÖEN - 9900003611**
**Kodu: 200037**
**M/H:AZ37NABZ01350100000000001944**
**SWIFT : AIIBAZ2XXX**
**Hərracın təşkilatçısı**
**"Əmlak Hərrac Mərkəzi" MMC**
**Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Fikrət Əmirov küçəsi, 11/1**
**Əlavə məlumat üçün www.birjanews.azTel: (+99450) 210-66-47; (+99451) 232-36-98**
**e-mail: info@e-herrac.com**
**rəsmi internet saytı: e-herrac.com**

## Elan

Bakı Dövlət Rabitə və Nəqliyyat kollecinin 3-cü kurs tələbəsi Əhmədzadə Emil Emin oğluna məxsus Tələbə bileti itdiyi üçün etibarsız sayılır.



## "Təkliflə çıxış etməyi düşünürük"

Natiq Cəfərli: "Azərbaycanda da 13-cü təqaüdün ödənilməsi mümkündür"

**Bazar günü İsveçrədə keçirilən referendum zamanı seçicilər təqaüd yaşının artırılmasının əleyhinə, pensiya ödənişlərinin artırılmasının isə lehinə səs veriblər.**

"Euronews" telekanalı xəbər verir ki, səsvermədə iştirak edən isveçrəlilər həmkarlar ittifaqlarının 12 aylıq pensiyadan əlavə hər il 13-cü pensiyanın verilməsi təşəbbüsünü dəstəkləyiblər. Referendumun nəticələri pensiyaçıların tarixi qələbəsi adlandırılıb. Alp ölkəsində pensiyaçılara hazırda dövlətdən 2 min 550 avro verilir. Lakin isveçrəlilərin fikrincə, bu, əsasən böyük şəhərlərdə normal yaşamaq üçün kifayət etmir. Hakimiyyət isə pensiya ödənişlərinin artırılmasının büdcəyə baha başa gələcəyi barədə xəbərdarlıq edib. Referendum zamanı seçicilər, həmçinin pensiya yaşının 66-ya qaldırılması təşəbbüsünün əleyhinə çıxıblar.

Bəs, Azərbaycanda təqaüdçülərə 13-cü pensiya verilə bilər? Ümumiyyətlə, ölkədə 13-cü əməkhaqqının ödənilməsi ilə bağlı proses nə yerdədir və kimlərə şamil olunur?

**Məsələ ilə bağlı "Şərq"ə danışan iqtisadçı-ekspert Natiq Cəfərli bildirib ki, Azərbaycanda 13-cü əməkhaqqı işəgötürənin verdiyi qərarla müəyyənləşir:**

"Yeni bu, qanunla tənzimlənmir. İstər dövlət, istərsə də özəl sektorlarda yalnız rəhbərliyin qərarı ilə 13-cü əməkhaqqı ödənilir. Bir sözlə, qanunda nəzərdə tutulsa da, bu, könüllülük əsasında həyata keçirilir. Keçən il Azərbaycan hökuməti təqaüdçülərə birdəfəlik yardım olaraq 200 manat ödədi. Fikrimcə, bunu qanun şəklinə salmaq daha yararlı olar. Türkiyədə seçkilərdən öncə bir və ya iki təqaüdün hədiyyə olaraq ödənildiyinin şahidi oluruq. Azərbaycanda da 13-cü təqaüdün ödənilməsini uğurlu addım hesab etmək mümkündür. Siyasi təşkilat olaraq seçkilər zamanı bu təkliflə çıxış etməyi düşünürük. Bu qərar vətəndaşların, təqaüdçülərin sosial vəziyyətinə müsbət təsir edəcək. Bunun üçün isə qanun dəyişikliyinə ehtiyac var".

**Nəzrin Vüqarqızı**

# Harda qaldı köhnə bayramlar?

## Novruz əhval-ruhiyyəsi hiss olunmur

**Novruz hər il ən əziz bayram kimi baharın gəlməsi münasibəti ilə geniş miqyasda qeyd olunur. Bu bayramın tarixi çox qədimdir.**

Azərbaycan xalqı Novruzu çox təntənəli və dörd həftə əvvəldən qeyd edir. Belə ki, hər həftənin ikinci günləri Su çərşənbəsi, Od çərşənbəsi, Yel çərşənbəsi və Torpaq çərşənbəsi qeyd olunur. Əvvəlki dövrlərdən fərqli olaraq, son vaxtlar bu bayram rayonlarda belə sönük keçir. İnsanlarda bayram əhval-ruhiyyəsi yoxdur. Sual yaranır. Səbəb nədir?

**Məsələni dəyərləndirən Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, kitabxana.net - Mir Cəlal Paşayev adına Milli Virtual Kitabxananın təsisçisi, Prezident təqaüdcüsü, yazıçı-kulturoloq Aydın Xan Əbilov "Şərq"ə bildirib ki, qloballaşan dünyada milli bayramlar get-gedə ilkin anlamını itirməyə başlayır:**

"Bu tarixlər zamanla unudularaq folklor nümunəsi olaraq muzeyşünasların, etnoqrafçıların, tarixçilərin tədqiqat apardığı hadisəyə çevrilir. Əhalinin böyük hissəsi rayonlarda yaşadığı üçün bayramlar burada daha təmtəraqlı keçirilirdi və uşaqların bayram sevinci böyük idi. Artıq onların əksəriyyəti paytaxtda və xarici ölkələrin böyük şəhərlərində məskunlaşırlar. Həmçinin koronavirus pandemiyası, Qarabağ müharibəsi, iqtisadi eniş və digər problemlər bayramların ildən-ilə sönük keçməsinə səbəb oldu. Əlamətlər günlərin kreativ biznesə çevrilməsi, kommersiyalaşdırılması dünyanın hər yerində var. Dəfələrlə təklif olunub ki, Novruz bayramını kreativ, mədəni biznesin bir hissəsinə çevirək. Braziliyada təşkil olunan karnavallar kimi, Azərbaycanda da mərasimlər qurulsun. Bu zaman Türk dünyasından, Türkiyə, İran, Avropa ölkələrindən çoxlu xarici turist gələcək. Buradan əldə olunan gəlir isə Azərbaycan iqtisadiyyatına kifayət qədər mühüm təsir edəcək. Xatırladaq ki, Türkiyədə turizm üzrə büdcəyə 60 milyard pul daxil olub. Əgər şənlikləri biznes forması kimi xidmət və əyləncə sektoruna çevirə bilsək, bayramları əvvəlki tərzdə qeyd edə bilərik. Bir çox ölkələr bu tip bayram axtarışındadırlar ki, qazana bilsinlər".



***"Dəfələrlə təklif olunub ki, Novruz bayramını kreativ, mədəni biznesin bir hissəsinə çevirək"***

**Nəzrin Vüqarqızı**

# Cahilliyin qurbanları

## İnsanlar hələ də falçıların toruna düşürlər



**Falçılıqla məşğul olaraq dələduzluqda təqsirləndirilən Günəş Qasımovanın cinayət işi üzrə məhkəmə prosesi yekunlaşıb.**

Dünən Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Fərid Namazovun sədrliyi ilə keçirilən prosesdə hökm elan edilib. Məhkəmənin hökmü ilə Günəş Qasımova 7 il müddətinə azadlıqdan məhrum olunub.

Qeyd edək ki, ittihama görə, Bakı şəhər sakini Günəş Qasımova Şirvan şəhərində falçı olduğunu bildirərək insanların problemlərinin həllində köməkliklər göstəriləcəyini vəd edib. O, aldatma yolu ilə zərərçəkmişlərin 50 000 dollarını və 15 min manatını dələduzluq yolu ilə ələ keçirməkdə ittiham olunur.

**Sosioloq Mail Yaqub "Şərq"ə vurğulayıb ki, falçılıq məntiqə zidd bir hərəkətdir: "Təəssüflər olsun ki, dünyanın bir çox ölkələrində insanlar falçıların toruna düşürlər. Onlar insanların emosiyasını manupilyasiya edirlər. Falçıların toruna düşməmək üçün bunlar edilməlidir:**

Birincisi, insanlar savadlarını artırmalıdırlar və çoxlu kitab oxumalıdırlar. Çünki falçılar insanları aldadaraq milyonlarla pulunu əlindən alırlar. İkincisi, dövlətini, millətini sevən ziyalılar təbliğat aparmalıdır və maarifləndirici söhbətlər etməlidirlər ki, insanlar belə tələlərə düşməsinlər".

**Fidan Həmişəyeva**

Təsisçi: "Şərq Media Qrup" MMC
Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Nihat Kərimli, Şəhanə Ziyad

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

"Şərq Media Qrup" MMC-yə daxildir:
"Şərq" qəzeti və sherg.az saytı
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
Kapital Bank ASC Yasamal filialı
Kod: 200037
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AIIBAZ2XXXX
AZM hesab nömrəsi:
AZ74AIIB400500G9441595487103
VÖEN 1307632991

Tirajı: 1500 Sifariş: 543



## Soyuq hava

3 milyondan çox otlayan heyvan tələf olub

**Monqolustanda qeyri-adi soyuq qışdan ölən otlayan heyvanların sayı 3 milyonu keçib, yazın son illərə nisbətən daha soyuq keçəcəyi gözlənilir.**

Trend-in məlumatına görə, bu barədə ölkənin fövqəladə hallar üzrə xüsusi dövlət komissiyası bildirib.

"Mart ayının əvvəlinə olan məlumata görə, güclü qar ilə müşahidə olunan qeyri-adi soyuq qışda ölkəmizdə 3 milyon 89 min 420 baş otlayan heyvan aclıqdan tələf olub. İtkilər 2024-cü ilin əvvəlinə qeydə alınan mal-qaranın 4,7 faizini təşkil edib", - deyə qeyd olunub.

Məlumata əsasən, indiki çətin vəziyyət gələn yaza qədər daha da ağırlaşacaq. Meteoroloqların məlumatına görə, Monqolustanda havanın orta illik normadan daha soyuq olacağı, güclü qar və toz fırtınaları olacağı gözlənilir. Bu, mal-qaranın otarılması və qarşıdan gələn balalama üçün əlverişsiz şərait yaradacaq.

## İtaliya nəhəngi Arda Güləri istəyir



**"Real Madrid"də kifayət qədər meydanlara çıxa bilməyən və baş məşqçisi Karlo Ançelottinin "inkişaf etmək üçün vaxt ayırmalı" dediyi Arda Gülər İtaliyaya gedə bilər.**

"Şərq" xəbər verir ki, İspaniyanın "Marca" qəzetinin xəbərinə görə, Gülər italyan nəhənginə transfer oluna bilər. Əgər razılıq əldə olunarsa, "Milan" təmsilçisi 18 yaşlı futbolçunu gələn mövsüm icarə əsasında heyətinə qatacaq. İtaliya A Seriyasında Hakan Çalhanoğlu, Zeki Çelik və Kənan Yıldız kimi Türkiyənin milli ulduzları da yer alır.

**Turan**

## Ronaldo nə vaxt təqaüdə çıxacaq?

Həyat yoldaşı Georgina tarixi açıqlayıb



**Georgina Rodriguez karyerasını Səudiyyə Ərəbistanında davam etdirən Kriştian Ronaldonun futboldan ayrılacağı tarixi açıqlayıb.**

"Şərq" xəbər verir ki, Kriştian Ronaldonun həyat yoldaşı Georgina Rodriges Paris Moda Həftəsində Ronaldo temalı geyimi ilə podiuma çıxıb.

Səhnə arxası söhbətində Rodriges Ronaldonun nə vaxt futboldan ayrılacağını açıqlayıb.

"Kristian bir ildən sonra təqaüdə çıxacaq. Bəlkə iki il, bilmirəm".

"Əl Nəsr"də çıxış edən Kriştian Ronaldo Səudiyyə Ərəbistanı yığması ilə ümumilikdə 48 oyun keçirib. Portuqaliyalı ulduz bu matçlarda 42 qol vurub, 13 məhsuldar ötürmə edib.

**Turan**

## 90 dəqiqəyə 6 milyon dollar qazandı!

Rihanna dünyanın ən bahalı toyunda



**Hindistanın ən varlı adamı Mukeş Ambaninin 28 yaşlı oğlu evlənir. 2018-ci ildə qızının toyuna 100 milyon dollar xərcləyən Ambaninin Rihanna və illüziyaçı Devid Bleynlə anlaşdığı bildirilib.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, barbadoslu müğənni toy öncəsi məclisdə çıxış edib. 2023-cü ildə "Super Bowl" çıxışından sonra ilk dəfə səhnəyə çıxan Rihannanın sosial mediada yayımlanan videoları yayılıb.

Rihanna milyarderin Camnaqardakı toy öncəsi məclisində unudulmaz çıxışı ilə yadda qalıb. "Work", "Wild Thoughts", "Birthday Cake", "Pour It Up" və "Pose" kimi mahnılarını ifa edən Rihanna rəqqaslarla birlikdə xüsusi xoreoqraf da hazırlayıb. Bəs, Rihannanı yenidən səhnəyə gətirən bu toy ona nə qədər qazandırdı? "Daily Mail" bildirir ki, təxminən bir saat yarım səhnədə qalan Rihanna 6,33 milyon dollar qazanıb. Anant Mukeş Ambaninin ən kiçik övladıdır. "Forbes"in məlumatına görə, iş adamının ümumi sərvəti 116 milyard dollardır. Daha sonra Mukeş Ambaninin oğlu Anant və nişanlısı Radhika Merşant səhnəyə çıxaraq çıxış ediblər. Ambani ailəsi tamaşadan sonra Rihannanı səhnədə müşayiət edib. Müğənninin qatıldığı gecə üç gün davam edən toyun ilk günü olub.

**Turan**

## Xanımı Brüs Uillis haqqında çıxan xəbərlərə əsəbiləşdi



**Afaziya diaqnozu qoyulduğu üçün karyerasını bitirən aktyor Brüs Uillisin xanımı Emma Hemminq mediada çıxan iddialara cavab verib.**

Axşam.az-ın məlumatına görə, o, aktyorun həyat sevincinin olmamamsı ilə bağlı çıxan başlıqlara əsəbiləşib.

"İnternetdə axtarış edərkən ailəmlə bağlı başlığa rast gəldim. Başlıqda artıq həyat yoldaşımın həyat sevincinin olmadığı yazılıb. Onu deyə bilərəm ki, bu reallıqdan uzaq xəbərdir. İnsanları qorxutmağı buraxın. Hər şey yazılanın tam əksidir" deyə, Brüsün xanımı sosial media hesabında yazıb.



# Ac, susuz saxlandı

## İşgəncə ilə öldürüldü



**Türkiyənin Adana bölgəsində portağal bağçasında meyiti tapılan 18 yaşlı İpək Akgülün işgəncə ilə öldürüldüyü məlum olub. "Şərq" "Milliyet.com.tr"yə istinadən bildirir ki, İpəyin anası Sihan Akgül qızının günlərlə ac, susuz saxlandığını, 5 nəfər tərəfindən işgəncə ilə öldürüldüyünü deyib.**

Hadisə Adananın Yumurtalıq bölgəsi, Asmalı məhəlləsində baş verib. Əmrah və Sihan Akgülün 3 övladından ən kiçiyi olan İpək portağal bağçasında Yaşar B. adlı şəxslə mübahisə edib. Mübahisə zamanı Yaşar B. İpəyin başından tapanca ilə vuraraq öldürüb. Sonra isə qızın meyitini yaxınlıqdakı tarlada, su quyusunda basdırıb. Daha sonra isə özü polisə zəng edərək qətl törətdiyini xəbər verib. Bölgəyə gələn polis əməkdaşları Yaşar B.-ni həbs edib. Şübhəli polisə qızı basdırdığı yeri nişan verib. Qızın cəsədi su quyusundan çıxarılıb. İpəyin dəfn mərasimində anası Sihan Akgül qızının guya sevgilisi tərəfindən öldürüldüyü iddialarına qarşı çıxıb: "Qızımın sevgilisi olmayıb. Qızım, 4-5 adam tərəfindən işgəncə görüb, qəddarlıqla öldürülüb. Onu neçə gün ac-susuz saxlayıb, sonra qətlə yetiriblər. Qızımın bədənində bir neçə yerdə yara, işgəncə izləri, qırıq vardı. Onu qəddarlıqla döyüblər". Ana bildirib ki, şübhəli şəxslərdən 3-ü yaxalanıb. 2 nəfərsə hələ də azadlıqda gəzir.

"Sadəcə, o canilərə bunu söyləmək istəyirəm. Siz, mənim qızımdan nə istədiniz? Əynimə geyindiyim qızımın köynəyidir. Mən hər gün onun köynəyini geyinirəm və bu köynəyin içində əriyib bitirəm. Mənim qızım sizə neylədi? Onu niyə belə parça-parça etdiniz? Bu gün, sabah hamınızı həbs edəcəklər. Ədalət qarşısında cavab verməli olacaqsınız", söyləyən ana Sihan Akgül İpəyin faciəsini unutmamağa çağırıb.

"İpək kimi gənc qızlarımız çoxdur. Onların da həyatı təhlükədədir. Hər gün bir qızımız ölür. Anaları fəryad edir. Bu gün qızım ikinci dəfə torpağa basdırılır. Bir dəfə onu quyuya basdırıblar. İndi isə mən onu məzarlıqda torpağa basdırıram. Mənim İpəyim öldü, başqa "İpəklər" ölməsin. Ədalət yerini tapsın".

**Məlahət**



# Yeni üsul tapıldı

## Altsheymer xəstələri daha tez bilinəcək

**Altsheymer (Alzheimer) diaqnozunun qoyulmasında yeni üsul tapılıb. "Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, ABŞ-dəki "Altsheymer dərnəyi"nin planına görə, xəstəliyin müəyyənləşməsində tapılan yeni üsul nəticəsində yaddaş itkisi və ya beyində hər hansı problemi olmayan milyonlarla insanın xəstə olub-olmadığını bilmək mümkün olacaq.**



"Altsheymer dərnəyi"nin gerçəkləşdirdiyi bir paneldə elm adamları sağlam, orta yaşlı insanlara altsheymer xəstəliyi diaqnozu qoyula biləcəyi barədə müzakirə aparıblar. Müzakirələr zamanı yeni üsulla daha çox insana erkən yaşda altsheymer diaqnozu qoyula bilər. Alimlərin dediyinə görə, altsheymer xəstəliyinin yaranmasına səbəb "amiloid" adlı toksik proteindir, bu proteinlərin miqdarı çoxdursa, insanda zamanla altsheymer xəstəliyi yaranır. Lakin zahirən insan sağlam, yaddaşı yerində görünür. Halbuki bu cür insanlar altsheymer xəstəliyinin artıq birinci mərhələsində hesab edilməlidir. Alimlərin yeni kəşfi isə amiloid proteinlərini təsbit edə bilən qan testləridir. Bu testlər nəticəsində amiloidlərin miqdarı müəyyən edilir və altsheymer xəstəliyində erkən diaqnoz qoyula bilir. "Altsheymer dərnəyi"nin üzvü Maria Carrillo deyib ki, yeni qan



testində məqsəd xəstəliyin erkən müəyyənləşməsidir. Bu halda xəstəliyin qarşısı da erkən alına bilir. Lakin bəzi alimlər bunun əleyhinədir və bildirirlər ki, əlamətləri görünməyən xəstəliklə bağlı insanlara diaqnoz qoymaq, bu insanların gələcək həyatlarının təhlükəyə ata bilər. İnsana xəstəliyi üzə çıxmamış, "sən xəstə olacaqsan", söyləmək nə tibbi, nə də etik baxımdan düzgündür.

**Məlahət**

## Ağrıkəsicilərə ehtiyac yox!

Tez-tez qripdən əziyyət çəkənlərə 1 dilim bəs edir



**İmmunitet sisteminin aşağı olması bir çox yoluxucu xəstəlik riskini artırır. İndiki vaxtda qriplə mübarizə daha çox vaxt aparır. Lakin bu meyvə sayəsində qripdən narahat olmayacaqsınız.**

C vitamini çatışmazlığı orqanizmin zəifləməsinə, tez xəstələnməsinə və yorğunluğa səbəb olur. C vitamini ilə zəngin qidaların qəbulu orqanizmin xəstəliklərə qarşı müqavimətini artırmağın ən faydalı yoludur.

Qreypfrut tərkibindəki yüksək miqdarda C vitamini ilə immunitet sistemini gücləndirir. C vitamini bədəni sərbəst radikallardan qoruyaraq və immunitet sisteminin düzgün işləməsinə kömək edərək qrip kimi infeksiyalara qarşı qoruyucu rol oynayır.

Qreypfrut boğaz infeksiyası, tənəffüs problemləri və burun axması kimi yoluxucu xəstəliklər üçün də təsirli qidadır. Dözümlü bir bədən bir çox xəstəliyə qalib gələ bilər.

Həzm sisteminə müsbət təsir göstərən qreypfrut bağırsaq sağlamlığını yaxşılaşdırır. İmmunitet sisteminə təsir edərək gücləndirən bu meyvə bağırsaqdakı mikroblara və infeksiyalara qarşı da mübarizə aparır.

Qreypfrutun tərkibində tənəffüs yollarına rahatlaşdırıcı təsir göstərən efir yağları var. Xüsusilə burun tıxanıqlığına qarşı təbii dəstək verə bilir. Aromatik quruluşu sayəsində tənəffüs yollarınız açılır və nəfəs almağınız asanlaşır.

Digər meyvələrdən daha maraqlı dadı olan qreypfrut qrip zamanı sizə ən yaxın olan meyvə olmalıdır. Bu acı şirin meyvədə olan limon turşusu həzm edildikdən sonra qələvi reaksiya yaradır. Yəni soyuqdəymə, öskürək və qripə qarşı qoruyucu qalxan effekti yaradır.

**Turan**

## Qəribə sindrom

3 yaşlı uşaq yarım ildir yemək yemir



**Böyük Britaniyada 3 yaşlı uşaq qida davranışı pozuntusu səbəbindən yeməkdən imtina edib.**

"Medicina" xəbər verir ki, autizm spektr pozuntusu olan oğlan uşağı 2 yaşından yemək yeməməyə başlayıb.

Pensbi qəsəbəsində yaşayan Oliverdə bütün yeməklərə qarşı qorxu yaranıb və o heç bir qidaya əlini də vurmur.

Çarəsiz qalan valideynlər həkimə gedib və uşaqda qida qəbulunu məhdudlaşdıran pozulma diaqnozu qoyulub.

Bu pozulma zamanı insan şüurlu olaraq müəyyən rəng, dad, qoxu, ölçüdə olanb yeməklərdən imtina edir və qida seçimini azaldır.

Heç bir yeməyi yaxın qoymayan uşağa məcburi zond qoyulub və o, yarım ildir burdan qidalandırılır.

Çoxladı deyirdi ki, ac qalsa özü yeyəcək, amma uşaq ölsə də dilinə yemək vurmur.

Ananın sözlərinə görə, bu qorxu autizm səbəbindən sensor pozulmasi ilə əlaqədardır. Bu nadir diaqnoz bir çox autizm spektrində ola bilər. Valideynlər belə halda çarəsiz qalıb insanlardan və digər ölkədəki həkimlərdən kömək istəyir.